**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN SSR ELMLƏR AKADEMİYASININ FORMALAŞMASI VƏ YARANMASI TARİXİ (1920-1945-ci illər)

İxtisas: 5503.02 – "Vətən tarixi"

Elm sahəsi: Tarix

İddiaçı: **Tamilla Sabir qızı Kocayeva**

elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı–2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan mədəniyyəti tarixi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | tarix elmləri doktoru, professor<br>**Tamilla Haşım qızı Musayeva** |
| Rəsmi opponentlər: | AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor<br>**İsmayıl Muxtar oğlu Hacıyev** |
| | tarix elmləri doktoru, dosent<br>**Fyodor Leonidoviç Sinitsın** |
| | tarix elmləri doktoru, professor<br>**İradə Mehdiqulu qızı Hüseynova** |
| | tarix elmləri doktoru, professor<br>**Cəfər Məmməd oğlu Cəfərov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | tarix elmləri doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri: ______________ | tarix elmləri doktoru, professor<br>**Mais İsrail oğlu Əmrahov** |

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX yüzillik Azərbaycan cəmiyyətinin siyasi, sosial-iqtisadi və mədəni həyatında qlobal dəyişikliklər dövrü olmuşdur. Respublikanın başlıca elmi müəssisəsi olan Azərbaycan Elmlər Akademiyasının təsis edilməsi haqlı olaraq XX yüzilliyin birinci yarısında Azərbaycan xalqının ən mühüm nailiyyətlərindən biri hesab edilir. Bu hadisə milli elmin və mədəniyyətin inkişafında mühüm dönüşlə əlamətdar olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası bütün nəhəngliyinə və çatışmazlıqlarına baxmayaraq, respublikanın elmi potensialını qoruyub saxlamış yeganə struktur idi.

78 il bundan öncə yaranmış Azərbaycan Milli Elmlər Akademiyası böyük və şərəfli inkişaf yolu keçmişdir. Azərbaycan elminin təşəkkülü və inkişafı, bir çox mühüm elmi-texniki nailiyyətlər AMEA-nın fəaliyyəti ilə qırılmaz tellərlə bağlıdır.

Sovet Azərbaycanının 70 illik tarixində 1920-1945-ci illəri əhatə edən dövr o qədər də böyük yer tutmur. Lakin bu qısa müddət ərzində xalqın həyatında vacib rol oynayan taleyüklü dəyişikliklər baş vermiş, respublikanın tarixində dərin iz buraxan gərgin mübarizə yaşanmışdır. Mürəkkəb, ziddiyətli və dramatik hadisələrlə zəngin olan sovet hakimiyyətinin ilk iyirmi ilində Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında böyük müvəffəqiyyətlər əldə edilmiş, qısa tarixi dövr ərzində Azərbaycan öz iqtisadi inkişafında böyük sıçrayış edərək, aqrar respublikadan sənaye respublikasına çevrilmişdir. Bu nailiyyətləri danmaq, onların üstündən xətt çəkmək haqsızlıq olardı. [1] Unudulmamalıdır ki, 20-30-cu illərdə Azərbaycan elliklə savadlanmış, orta ümumtəhsil məktəblərinin, xəstəxana və poliklinikaların, ali və orta ixtisas məktəblərinin, elmi-tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmişdir. [2] İqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının inkişafı, yeni sənaye sahələrinin

---

[1] Исмаилов, Э. История «большого террора» в Азербайджане / Э.Исмаилов. – Москва: Политическая энциклопедия, – 2015, – с.14.

[2] Алиев, Г.А. На стыке тысячелетий. Обращение Президента Гейдара Алиева к азербайджанскому народу в связи с наступлением нового, 2001 года, нового века и нового тысячелетия / Г.Алиев. – Баку: Qızıl Şərq, – 2001, – с.129.

yaradılması, Azərbaycan cəmiyyətinin bütün həyatının yenidən qurulması və s. sayəsində bu illərdə zəngin intellektual potensial formalaşmağa başlamışdı. Bu tarixi mərhələnin bütün peripetiyaları və mürəkkəblikləri ilə bərabər, bir məqam şübhəsiz ki, aydın surətdə nəzərə çarpır: sözügedən illərdə XX əsrin Vətən və dünya mədəniyyətində əhəmiyyətli fakta çevrilmiş yeni sovet mədəniyyəti - real tarixi fenomen meydana gəlirdi. [3]

Sovet hakimiyyəti illərində Azərbaycan xalqının elmi fikri, şübhəsiz ki, sovet elm tarixinin ayrılmaz hissəsi kimi inkişaf edirdi. Sovet dövlətinin elm sahəsində, onun təşkilində və idarəçilik sistemində gerçəkləşdirdiyi siyasətdə, habelə hakimiyyətlə alimlərin qarşılıqlı münasibətlərində 1920-ci illərdən 1941-1945-ci illər müharibəsinin sonuna qədər bir neçə əsas, özünəməxsus, lakin qarşılıqlı əlaqədə olan xronoloji mərhələ seçilir. Bütün ölkə alimləri kimi Azərbaycan alimləri də elm və təhsilin dəstəklənməsindən (1920-1929), "böyük dönüş" ilindən (1929), ardınca yeni sosialist institutunun – sərt reqlamentləşdirilən, mərkəzləşdirilən elmin yaradılmasına gətirib çıxaran "mədəni inqilabdan" (1929-1933), "böyük terrordan" (1936-1938), nəhayət, sovet dövlətinin müharibədə qələbəsinin ən önəmli elementinə çevrildiyi üçün elmin misilsiz yüksək siyasi əhəmiyyət kəsb etdiyi mərhələdən (1941-1945) keçməli olmuşdular. Bu dövrləşmə bolşevik rejiminin təkamülünü, sovet hakimiyyətinin elmlə münasibətlər qurmaq istiqamətində müxtəlif cəhdlərini görməyə ilk dəfə imkan verir.

XX əsrin 1920-1945-ci illəri Azərbaycan elminin yaşam salnaməsində yetərincə kiçik dövrdür. Lakin hadisələrin zənginliyi, inkişaf sürəti baxımından əvvəlki bütün tarixdə bu 25 ilin tayı-bərabəri olmamışdır. Mahiyyət etibarı ilə bu illər ərzində elmi potensialın təşkilati strukturu təşəkkül tapmış, elmi cəmiyyətlər, assosiasiyalar, özəklər, müxtəlif profilli elmi təsisatlar, onların ilk rəhbər və idarəçilik orqanları yaradılmış, əsas tədqiqatçı maraqları formalaşmışdı, ali məktəblərin kafedraları və laboratoriyaları isə elmi-tədqiqat işinin ilk ocaqlarına və elmi kadrları hazırlığının mərkəzlərinə çevrilmişdi.

---

[3] Мусаева, Т. Культура Азербайджана на рубеже эпох (20-30-е годы XX столетия) / Т.Мусаева. – Баку: Elm və təhsil, – 2015, – с. 17.

Azərbaycanda elmin inkişaf mərhələləri, Elmlər Akademiyasının yaradılması ümumən SSRİ-də elmin inkişaf mərhələləri ilə eyni idi.

Problemin öyrənilmə dərəcəsini səciyyələndirərkən, qeyd olunan kompleks aspektində 1920-1945-ci illərdə Azərbaycan Elmlər Akademiyasının formalaşması və yaradılması tarixinin problemi, bu mövzunun aktuallığına və tarixi əhəmiyyətinə baxmayaraq, işlənməmişdir. Bu mövzu xüsusi kompleks tədqiqatın predmeti olmamışdır, onun müxtəlif aspektləri dəfələrlə tədqiqatçıların diqqətini özünə cəlb etmişdir.

Mövzunun öyrənilməsində mədəniyyət, elm və təhsil tarixinə dair praktiki olaraq bütün əsərlər böyük əhəmiyyət kəsb edir. Azərbaycanda mədəniyyətin inkişafından, elmin təşəkkülündən, ilk elmi müəssisələrin və ali təhsil ocaqlarının fəaliyyətindən, elmi işçilərin hazırlanması problemlərindən bəhs edən ilk nəşrlərə hələ keçən yüzilliyin 20-40-cı illərində cəhd edilmişdir. O dövrdə meydana gəlmiş əsərlərin çoxu hal-hazırda biblioqrafik nadir kitablara çevrilmişdir.[4]

Azərbaycan elminin inkişafı və respublika Elmlər Akademiyasının təşəkkülü məsələləri bir sıra kollektiv tarixi əsərlərdə şərh olunmuşdur. [5] Təbii ki, bu ümumiləşdirici əsərlərdə respublikanın

---

[4] К истории Азербайджанского археологического комитета // Известия Азербайджанского археологического комитета, – Баку: – 1925. №1; Зифельдт, А.Р. Деятельность «Общества обследования и изучения Азербайджана» за два года. 2 ноября 1923 г. – 8 ноября 1925 г.: Доклад, читанный на торжественном заседании по случаю 2-летия общества, состоявшегося 8 ноября 1925 г. //Известия Общества обследования и изучения Азербайджана. – Баку: – 1925. №1; Ələkbərov, Ə. Elmi nailiyyətlər (arxeoloji və etnoqrafiya sahəsində) // – Bakı: Maarif və mədəniyyət, – 1927. № 10-11; yenə onun: Elmi işlərimizin on illiyi // – Bakı: İnqilab və mədəniyyət, – 1930. № 4-5; yenə onun: Bizə əsil ölkəşünaslıq muzəsi lazımdır // – Bakı: İnqilab və mədəniyyət, – 1930. №2-3; Научные работники Азербайджана. Справочник. – Баку: Издание Секции научных работников, – 1927; Şərif, Ab. Azərbaycanda böyük elmi mərkəz // – Bakı: İnqilab və mədəniyyət, – 1930. №2-3; Наука в АССР за 15 лет. Азербайджанский филиал Академии наук СССР // Труды АзФАН СССР. – Баку: – 1936. №30.

[5] История Азербайджана: [в 3томах] / Под ред. академика И.А.Гусейнова [и др.]. – Баку: Изд-во АН Азерб. ССР, – т. 3, ч. 1-2. – 1963; Очерки истории Коммунистической партии Азербайджана / Под ред. М.С.Искендерова [и др.]. – Баку: Азербайджанское государственное издательство, – 1963; Azərbaycan

ilk elmi təsisatlarının fəaliyyəti yığcam əks olunmuşdur. Onlarda başlıca olaraq 1945-ci ildən, yəni respublikada müstəqil Elmlər Akademiyasının yaradılmasından sonra elmi fəaliyyətinin nəticələrinə diqqət yetirilmişdir.

Azərbaycan Elmlər Akademiyasının – respublikamızda aparıcı elmi mərkəzin fəaliyyətinin ayrı-ayrı mərhələləri, elmin təşəkkülünün və inkişafının ümumi məqamları mədəni quruculuq tarixinə dair müstəqil istiqamət olaraq formalaşmış geniş monoqrafik tədqiqatlarda işıqlandırılmışdır. Azərbaycanda, öz tədqiqatlarını respublikada mədəni quruculuq məsələlərinə həsr etmiş görkəmli alimlər məktəbi təşəkkül tapmışdır. Bu sahədə M.Y.Vəkilov[6], N.A.Paşayev[7], A.M. Atakişiyev[8], T.H.Musayeva[9], V.M.Arzumanlı, İ.K.Qassiyev [10] və b. səmərəli fəaliyyət göstərmişlər. Qeyd olunan müəlliflərin əsərləri zamanın ideoloji çərçivəsinə uyğun hazırlanmasına baxmayaraq, onlarda çoxlu sayda faktiki material, müasir dövrümüzdə də öz əhəmiyyətini itirməmiş nəticələr və ümumiləşdirmələr vardır. Bu tədqiqatlarda 1920-1945-

---

tarixi: [7 clddə] / Məsul red. C.B.Quliyev. – Bakı: Elm, – c. 6. – 2000.

[6] Vəkilov, M.Y. Oktyabr inqilabı və Azərbaycanın sosialist mədəniyyətinin inkişafı / M.Y.Vəkilov. – Bakı: Azərnəşr, – 1955; yenə onun: Azərbaycanda mədəni inqilab: 1920-1940-cı illər / M.Y.Vəkilov. – Bakı: Əbilov, Zeynalov və oğulları, –2005.

[7] Пашаев, Н.А. Очерки истории культурного строительства Советского Азербайджана / Н.А.Пашаев. – Баку: Азербайджанское государственное издательство, – 1965; yenə onun: Победа культурной революции в Советском Азербайджане / Н.А.Пашаев. – Москва: Наука, – 1976.

[8] Атакишиев А.М. История Азербайджанского государственного университета / А.М.Атакишиев. – Баку: Издательство АГУ, – 1989.

[9] Мусаева Т.А. Революция и народное образование в Азербайджане. Очерки истории развития народного образования в Азербайджане (1920-1940 годы) / Т.Мусаева. – Баку: Элм, – 1979; yenə onun: Культура Азербайджана на рубеже эпох (20-30-е годы XX столетия) / Т.Мусаева. – Баку: Elm və təhsil, –2015.

[10] Арзуманлы В., Гассиев И. Азербайджанская республика и формирование тюркской интеллигенции в странах Центральной Азии и Северного Кавказа (1920-1937 гг.) / В.Арзуманлы, И.Гассиев. – Баку: Гартал, – 2000; yenə onlar: Страницы азербайджано-российского сотрудничества в области науки и высшего образования (1920-1940-е годы) / В.Арзуманлы, И.Гассиев. – Баку: Гартал, – 2002.

ci illərdə respublika Elmlər Akademiyasının formalaşması və yaradılması problemi, onların ənənəvi problematikasının ümumi məsələləri ilə bir kontekstdə nəzərdən keçirilmişdir.

Ölkənin ayrı-ayrı regionları üzrə tarixi materialın toplanılması tədqiqatçılara ümumrusiya miqyasında sanballı əsərlər yazmağa imkan vermişdir. [11]

1950-ci illərin sonlarından etibarən əlamətdar tarixlərə ithaf olunmuş "yubiley" tarixşünaslıq ədəbiyyatı janrı meydana gəlir. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının yaradılmasından sonra respublikada elmin inkişafı tarixini və Elmlər Akademiyasının tarixini işıqlandıran silsilə yubiley əsərləri[12] nəşr olundu. Bu əsərlər zəngin faktiki materiallara əsaslanır, lakin demək olar ki, hamısı təsviri xarakter daşıyır. Xüsusilə tədqiq olunan 1920-1945-ci illər həmin əsərlərdə ötəri olaraq nəzərdən keçirilmişdir.

Sovet dövründə elmin inkişafı problemi Azərbaycan akademik elminə uzun illər rəhbərlik etmiş məşhur kimyaçı-alim Y.H.Məmmədəliyevin əsərində[13] öz əksini tapmışdır. Respublikada

---

[11] Комков, Г.Д. Академия наук СССР - штаб советской науки / Г.Д.Комков, О.М.Карпенко, Б.В.Левшин [и др.]. – Москва: Наука, – 1968; Кольцов, А.В. Роль Академии наук в организации региональных научных центров СССР, 1917-1961 гг. / А.В.Кольцов. – Ленинград: Наука, – 1988; Левшин Б.В. Советская наука в годы Великой Отечественной войны / Б.В.Левшин. – Москва: Наука,–1983; Козлов, Б.И. Академия наук СССР и индустриализация России: Очерк социальной истории 1925-1963 / Козлов Б.И. – Москва: Akademia, – 2003; Колчинский, Э.И. Советизация Академии наук (1928-1932 гг.) / Академическая наука в Санкт-Петербурге в XVIII-XX веках. Исторические очерки. – Санкт-Петербург: Наука, – 2003.

[12] Десять лет Академии наук Азербайджанской ССР. Научная сессия 23-27 апреля 1955. – Баку: Изд-во АН Азерб. ССР, – 1957; Академия наук Азербайджанской ССР. 20 лет / Под ред. академика З.И.Халилова. – Баку: Элм, – 1966; Академия наук Азербайджанской ССР 30 лет / Под ред. член-корреспондента АН СССР Г.Б.Абдуллаева. – Баку: Элм, – 1976; Azərbaycan Elmlər Akademiyası – 50 / Red. hey. sədri akademik E.Y.Salayev. – Bakı: Sabah, – 1995; Azərbaycan Milli Elmlər Akademiyası 60 / Red. hey. sədri akademik M.K.Kərimov. – Bakı: Elm, – 2005; Azərbaycan Milli Elmlər Akademiyası – 70 il / red. M.Ə.Sərdarov. – Bakı: Elm və təhsil, – 2015.

[13] Мамедалиев, Ю.Г. Развитие науки в Азербайджане / Ю.Г. Мамедалиев. –

təbiət elminin və texnikanın inkişafı tarixinə dair iki cildlik "Azərbaycanda elmin salnaməsi" [14] məqalələr topluları sovet nəşrləri arasında xüsusi maraq doğurur. Lakin mövzunun bizim araşdırdığımız dövrü bu əsərlərdə fraqmentar işıqlandırılmışdır.

Göstərilən işlərdən əlavə, elmin inkişafı məsələləri ilk illərin xüsusi tədqiqatlarında araşdırılmışdır. İlk olaraq "Sovet Azərbaycanında xalq maarifi (1920-1927-ci illər)"[15] kitabını qeyd etmək olar. Nöqsanlara baxmayaraq, bu kitab 1941-1945-ci illər müharibəsinin başlanmasına qədər respublikada elmin inkişafına dair məlumatların yer aldığı yeganə ümumiləşdirici iş olaraq qalmışdır.

Bizim öyrəndiyimiz problemə həsr edilmiş və AMEA-nın 60 illik yubileyinə ithaf olunmuş elmi nəşr T.Musayevanın və A.Məmmədovun monoqrafiyasıdır. [16]Bu əsərdə Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının əsas mərhələləri və respublikada elmi ziyalı kadrlarının hazırlığı yığcam formada göstərilmişdir. T.Musayevanın Azərbaycanda 1920-30-cu illərdə mədəni quruculuğa həsr olunmuş "Azərbaycan mədəniyyəti əsrlərin qovşağında" adlı əsərində bu çoxplanlı problemin bütün sahələri, o cümlədən Azərbaycanda elmin inkişafı problemi tədqiq olunur. Lakin birinci monoqrafiyada olduğu kimi, bu əsərdə də deyilir ki, *"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi-tədqiqat fəaliyyətinin birtərəfli istiqamətdə olması, başlıca olaraq humanitar elmlərin inkişafına yönəlmişdi*".[17] Arxiv materiallarının təhlili isə belə nəticəyə gəlməyə əsas verir ki, İttifaqda təşkil olunmuş və əsasən şərqşünaslıq, humanitar, yaxud da diyarşünaslıq

---

Баку: Изд-во АН Азерб. ССР, – 1960.

[14] Летопись науки в Азербайджане: [в 2 томах]. – Баку: Элм, – т. 1 (Естествознание); т. 2 (Техника). – 1969.

[15] Народное образование в Советском Азербайджане (1920-1927 гг.). – Баку: Издание НКП АССР, – 1928.

[16] Мусаева, Т. На путях создания Академии наук и формирования кадров научной интеллигенции Азербайджана / Т.Мусаева, А.Мамедов; – Баку: Нурлан, – 2005.

[17] Мусаева, Т. Культура Азербайджана на рубеже эпох (20-30-е годы XX столетия) / Т.Мусаева. – Баку: Elm və təhsil, – 2015, с. 200.

problemlərini tədqiq edən analoji elmi cəmiyyətlərdən fərqli olaraq, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti elmin və ümumən respublikanın həyatının bütün istiqamətləri üzrə nəhəng işlər görərək, elmin yeni sahələrini yaradırdı.

1940-1990-cı illərdə respublikada elmin ayrı-ayrı sahələrinin inkişafı haqqında xeyli məqalə və kiçik kitabçalar nəşr olunmuşdur. Onların müəllifləri bir qayda olaraq peşəkar elm tarixçiləri deyil, biliyin bu və ya digər bilik sahəsində – fizika-riyaziyyat, astronomiya və energetika, [18] kimya, neft-kimya, [19] biologiya və kənd təsərrüfatı, [20] tibb, [21] geologiya, coğrafiya, torpaqşünaslıq, [22]

---

[18] Амирханов, Х.И., Абасзаде А.К. Развитие физики в Азербайджане // Известия АН Азербайджанской ССР, – Баку: – 1947. – №10; Есьман, И.Г. Институт энергетики // Известия АзФАН СССР, – Баку: – 1942. №11; Халилов, З.И. Развитие физико-математических наук в Советском Азербайджане // Известия АН Азербайджанской ССР, – Баку: – 1957. №10.

[19] Герр, В.Ф. Очерки развития химии / В.Ф.Герр В.Ф., М.Э.Эфенди, В.Ф. Негреев / Наука АССР за 15 лет // Труды АзФАН СССР. – Баку: – 1936. №30; Салаев С.Г., Мирзоев Х.И. Этапы развития поисков нефти в Азербайджане во второй половине XIX и начале XX века // Летопись науки в Азербайджане: [в 2 томах]. – Баку: Элм, – т. 2 (Техника), 1969; Амиркулиев, Г.Д. История химической промышленности Азербайджана (XIX – нач. XX вв.) / Г.Д.Амиркулиев. – Баку: Элм, – 1990.

[20] Гроссгейм, А.А. Развитие ботанической науки Азербайджана за 20 лет // Известия АзФАН СССР, – Баку: – 1940. №2; Державин, А.Н. Зоологические исследования в Азербайджане за 20 лет // Известия АзФАН СССР, – Баку: –1940. №5; Волобуев, В.Р., Караев А.Н. История развития и основные итоги исследований в области биологических наук за 50 лет в Азербайджане / Развитие науки в Советском Азербайджане. – Баку: Изд-во АН Азерб. ССР, – 1967.

[21] Мир-Касимов, М.А. Развитие научной медицинской мысли в Азербайджане за 25 лет // Известия АН Азербайджанской ССР, – Баку: – 1945. № 9; Гусейнов, Д.Ю. 40 лет развития медицинской науки в Азербайджане // Азербайджанский медицинский журнал, – Баку: – 1960. № 4.

[22] Гусейнов, Д.М. Исторический обзор развития в Азербайджане почвоведения и агрохимии за время Советской власти // Известия АН Азербайджанской ССР, – Баку: – 1947. №10; Якубов, А.А. Успехи в области геологии в Азербайджане за советский период // Известия АН Азербайджанской ССР, – Баку: – 1947. №10; Гюль, Г.К. Состояние географической науки и географического образования в Азербайджанской ССР и перспективы их развития / Достижения наук в Азербайджане. Наука

humanitar və ictimai [23] elmlərdə tanınmış alim-mütəxəssislərdir. 2016-cı ildən başlayaraq AMEA-nın Elm tarixi institutunun əməkdaşları tərəfindən bəzi elm sahələrinin inkişaf tarixinə həsr olunan ayrıca sənədlər topluları və kitablar nəşr olunmuşdur. [24]

Azərbaycan Elmlər Akademiyasının formalaşması və yaradılması, 1920-1940-cı illərdə hakimiyyət və alimlərin qarşılıqlı münasibətləri problemlərinin işıqlandırılması və şərh olunmasına sovet ziyalılarının tarixinin tarixşünaslığı mühüm töhfə vermişdir. Elmi ziyalıların formalaşmasının müxtəlif xronoloji mərhələ və aspektləri H.V.Xəlilov, M.Ə.Rüstəmov, A.Q.Pisman, Ə.Z.Bağırzadə, D.S.Hüseynova, N.A.Tahirzadə, T.Ş.Baxşəliyev, Z.A.Məlik-Aslanova və b. alimlərin əsərlərində işıqlandırılmışdır. [25]

---

за 40 лет (1920-1960) / Под ред. Ю.Г.Мамедалиева. – Баку: Изд-во Академии наук Азербайджанской ССР, – 1960.

[23] Ализаде А.А., Левиатов В.Н. Историческая наука в Азербайджанской ССР // Известия АН Азерб. ССР, – Баку: – 1947. №10; Şirəliyev, M. 40 ildə Azərbaycan dilçiliyinin inkişafı / Azərbaycan elminin nəiliyyətləri. Elm 40 ildə (1920-1960). – Bakı: Azərb. SSR EA nəşriyyatı, – 1960; Алиев, И., Алибекова Э. Из истории изучения античности в Азербайджанском государственном университете в 20-50-е годы XX в. // Ученые записки АГУ им. С.М.Кирова, Серия истории и философии, – Баку: – 1975. № 1; yenə onlar: Изучение древней истории в Азербайджане за годы советской власти // Вестник древней истории, – Москва: – 1977. № 4.

[24] Зейналова, А. Очерки по истории зоологии в Азербайджане (1902-1980) / А.Зейналова. – Баку: Elm və təhsil, – 2016; Seyidbəyli, M. Astronomiyanın tarixinə dair oçerk / M.Seyidbəyli, S.Nemətzadə; – Bakı: Elm, 2018; Seyidbəyli, M. Biologiyanın tarixinə dair oçerk / M.Seyidbəyli, A.Əhmədov, S.Məmmədova; –Bakı: Elm, – 2018; Seyidbəyli, M. Coğrafiyanın tarixinə dair oçerk / M.Seyidbəyli, Z.Əliyev, N.Nuriyev, C.Qasımlı; – Bakı: Elm, – 2018; Seyidbəyli, M. Fizikanın tarixinə dair oçerk / M.Seyidbəyli, G.Mehdiyeva, A.Bədəlova; – Bakı: Elm, – 2018; Seyidbəyli M.Kimyanın tarixinə dair oçerk / M.Seyidbəyli, R.Mirzəbəyova, G.Əliyeva; – Bakı: Elm, – 2018; Mirzəbəyova, R. Azərbaycanın iqtisadiyyat tarixi və tarixçiləri / R.Mirzəbəyova. – Bakı: Elm və təhsil, – 2019.

[25] Халилов, Г.В. Создание и развитие советской социалистической интеллигенции в СССР / Г.В.Халилов. – Баку: Азернешр, – 1962; Rüstəmov, M.Ə. Azərbaycan sovet ziyalılarının formalaşması və inkişafı / M.Ə. Rüstəmov. – Bakı: Azərbaycan SSR EA, – 1963; Письман, А.Г. Деятельность КП Азербайджана по формированию советской национальной интеллигенции в годы социалистического строительства (1920-1932 гг.): / Автореф.

Məşhur alimlərə həsr olunmuş monoqrafiyalar, biblioqrafik toplular, məqalələr, habelə elmi məktəblərin meydana gəlməsi və inkişafı məsələlərinin, onların baniləri haqqında məlumatların əks olunduğu nəşrlər böyük maraq doğurur.[26]

Elmin inkişaf tarixi, Elmlər Akademiyasının yaradılması məsələləri respublikada müdafiə edilmiş dissertasiyalarda qismən əksini tapmışdır. [27]

---

дис…канд. ист. наук./ – Баку, – 1970; Мелик-Асланова, З.А. Формирование и развитие советской технической интеллигенции в Азербайджане (1920-1932 гг.): / Автореф. дис… канд. ист. наук./ – Баку, 1983; Бахшалиев, Т.Ш. Изменения в численности и составе интеллигенции Азербайджанской ССР. 1960-1980 гг. / Т.Ш. Бахшалиев. – Баку: Издательство Азербайджанского университета, – 1989. – 135 с.; Багирзаде, А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны / А.Багирзаде. – Баку: Азернешр, – 1989; Гусейнова, Д.С. Азербайджанская интеллигенция в конце XIX - начале XX вв.: / Автореф. дис…докт. ист. наук./ – Баку, 1993; Таирзаде, Н. Из истории азербайджанской интеллигенции / Н.Таирзаде. – Баку: Адильоглы, – 2009.

[26] Повилейко, Р. Курчатов в Баку // Литературный Азербайджан, – Баку: – 1963. №11-12; Платонов, Б.А. Ю.Мамедалиев: страницы жизни / Б.А.Платонов. – Баку: Изд-во АН Азерб. ССР, – 1966; Османов, У. Бакинская школа нефтехимиков (Творцы-лидеры-личности) / У.Османов. – Баку: Научно-гуманитарный Фонд «Химик», – 2003; Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı: [2 cilddə] / red.M.Kərimov. – Bakı: Elm, – c. 1-2. – 2005; Qaralov, Z.Abasqulu Abaszadə (biblioqrafiyası, elmi-pedaqoji irsi) / Z.Qaralov, A.Abaszadə, C.Qəhrəmanov; – Bakı: Pedaqogika, – 2005; Azərbaycan şərqşünaslıq elminin banisi akademik Əbdülkərim Əlizadə (sənədlər, məktublar, xatirələr) / red. prof. Y.M.Yaqubov, tərt. ed. Z.Ə.Əlizadə. – Bakı: Təhsil, – 2005; Azərbaycan fizikləri Sankt-Peterburq fiztexi haqqında xatirələri / red. A.M.Həşimov. – Bakı: Elm, – 2008; Axundova, M. Elm xəzinəsini zənginləşdirənlər / M.Axundova. – Bakı: Elm, – 2014; Hacıyeva, Z. AMEA Prezidentləri. Şanlı yolun mərhələləri / Z.Hacıyeva. – Bakı: Elm, – 2014; Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçıları: Biblioqrafik məlumat kitabı. – Bakı: Elm, – 2015; Akademiya simalarda. 70 il (1945-2015). Azərbaycan Milli Elmlər Akademiyası. – Bakı: Elm, – 2015; Akademik Yusif Məmmədəliyev / tərt. ed. D.Tağıyev. – Bakı: Elm, – 2015; Qasımov C.Ə. Azərbaycan folklorşünasları: 1920-1950. – Bakı, – 2015; Azərbaycan Milli Elmlər Akademiyası simalarda: Azərbaycan Milli Elmlər Akademiyası 75 il: 1945-2020. – Bakı:, Elm, –2021.

[27] Вейсов, А.Б. Развитие физики в Советском Азербайджане. 1920-1960: /

Respublikada ali təhsilin tarixi daha yaxşı öyrənilmişdir. Akademik elmin ali məktəblə əlaqələri, milli ziyalı kadrların hazırlanmasında alimlərin rolu A.O.Makovelskinin, X.O.Əlimirzəyevin, A.M.Atakişiyevin, İ.A.İbrahimovun, E.Ə.Abasovanın, Ə.T.Əmiraslanovun, M.C.Mərdanovun, Ə.Ş.Tahirzadənin və başqalarının ayrı-ayrı ali təhsil müəssisələrinin tarixinə həsr olunmuş əsərlərində işıqlandırılmışdır. [28]

Elə o zaman tədqiqatların başqa bir istiqaməti meydana gəldi ki, o da ənənəvi oldu. Bu istiqaməti respublikada muzey quruculuğu problemini tədqiq edən tarixçilər təmsil edirdilər. Respublikada

---

Автореф. дис... канд. физ. - мат. наук./ – Баку, 1966; Векилов, М. Коммунистическая партия – организатор культурной революции в Азербайджане (1920-1940 гг.): / Автореф. дис…докт. ист. наук./ – Баку, 1968; Велиев, М.М. Развитие науки в Азербайджанской ССР (1920-1940 гг.): / Автореф. дис... канд. ист. наук./ – Баку, 1972; Мелик-Асланова, З.А. Формирование и развитие советской технической интеллигенции в Азербайджане (1920-1932 гг.): / Автореф. дис… канд. ист. наук./ – Баку; Мамедов, Ф.Т. Вклад учёных - химиков в развитие народного хозяйства СССР. 1920-1959 гг. (на материалах Азерб. ССР.): / Автореф. дис…докт. ист. наук./ – Баку, 1985.

[28] Маковельский, А.О. Азербайджанский государственный университет им. Ленина. Первое десятилетие (1919-1929) / А.О.Маковельский. – Баку: Изд-во АГУ, – 1930; Алимирзоев, Х.О. Азербайджанский государственный университет за 50 лет /Х.О.Алимирзоев. – Баку: Азербайджанское государственное издательство, – 1969; Абасова Э.Г. Азербайджанская Государственная Консерватория им. У.Гаджибекова / Э.Г.Абасова, Д.Х.Данилов, Л.В.Карагичева [и др.]. – Баку: Азербайджанское государственное издательство, – 1972; Ибрагимов, И.А. Первый технический вуз Закавказья / И.А.Ибрагимов, А.Н.Аббасов. – Баку: Азернешр, – 1981; Атакишиев, А.М. История Азербайджанского государственного университета / А.М.Атакишиев. – Баку: Издательство АГУ, – 1989; Əmiraslanov, Ə.T. Azərbaycan Tibb Universiteti – 80 / Ə.T.Əmiraslanov. – Bakı: Təhsil, – 2010; Məmmədov, Y.Ə. Azərbaycan Dövlət Pedaqoji Universiteti-90 / Y.Ə.Məmmədov. – Bakı: Təhsil, – 2012; Azərbaycan Memarlıq və İnşaat Universiteti – 95 / red. prof. G.H.Məmmədova. – Bakı: Qərb-Şərq, – 2016; Tahirzadə, Ə.Ş. Azərbaycan Cümhuriyyəti tələbələri (Tarixi arayış, bəlgilər, yaşamlar) / Ə.Ş.Tahirzadə, O.Ə.Tahirli. – Bakı: TEAS Press Nəşriyyat evi, – 2016; Mərdanov, M.C. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar (Ensiklopedik soraq kitabı): [7 cilddə] / M.C.Mərdanov, Ə.Ş.Tahirzadə. – Bakı: Təhsil, – c. 1. – 2018.

muzey işinin tarixi V.Y.Qarnik, A.H.Yunusov, B.İ.İşxanov, A.T.Baxşıyeva, B.B.Kərimov və başqaları tərəfindən tədqiq olunmuşdur. [29]

Azərbaycan elminin inkişafının və respublika Elmlər Akademiyasının təşəkkülündə mühüm problemlərin öyrənilməsi zamanı Rusiya alimlərinin Stalin repressiyalarına həsr olunmuş nəşrlərindən də istifadə olunub.[30] Həmin nəşrlərdə Azərbaycana aid məlumatlar da az deyil.

Lakin araşdırmalar göstərir ki, Azərbaycan tarixşünaslığı sözügedən problemə dair böyük, sanballı tədqiqatlara malik deyildir. Sovet illərində adekvat tədqiqatların və haqqında bəhs olunan illərdə mövcud repressiv aparatın fəaliyyəti barədə dəyərləndirmənin yoxluğunu keçmişdə tədqiqatçılar üçün ciddi surətdə məxfiləşdirilmiş arxiv materiallarının əlçatmazlığı, kifayət qədər yoxlanılmamış qaynaqlardan istifadə, bəzi hallarda isə Sovet İttifaqının mürəkkəb və çətin dövrünün öyrənilməsi zamanı özünü büruzə verən siyasi qərəzlərlə müəyyənləşən tədqiqatçıların subyektiv yanaşması ilə izah edə bilərik.

---

[29] Гарник, В.Я. Очерк истории музейного строительства в Азербайджанской ССР (1920-1964) / Очерк истории музейного дела в СССР. – Москва: Советская Россия, – 1971; Ишханов, Б.И. Музей истории народов Азербайджана // Известия АзФАН СССР, – Баку: – 1939. №3; Юнусов, А.Г. История музейного строительства в Азербайджанской ССР (1920-1980): / Автореф. дис... канд. ист. наук./ – Баку, 1987; Kərimov B.B. Azərbaycanda tarix - diyarşünaslıq muzeylərinin təşəkkülü və inkişafı tarixi: / tarix üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı./ – Bakı, 2005; Бахшиева, А. Из истории музейного дела в Азербайджане (на материалах Музея истории Азербайджана) / А.Бахшиева. – Баку: Элм, – 2005; Hacıyeva, Z. Azərbaycan Dövlət Muzeyi / Z.Hacıyeva. – Bakı: Şərq-Qərb Nəşriyyat evi, – 2012.

[30] Репрессированная наука / Под ред. проф. М.Г. Ярошевского. – Ленинград: Наука, – 1991; Ашнин, Ф.Д. Репрессированная тюркология / Ф.Д.Ашнин, В.М. Алпатов, Д.М.Насилов; – Москва: Восточная литература РАН, – 2002; Лубянка. Сталин и Главное управление госбезопасности НКВД. Архив Сталина. Документы высших органов партийной и государственной власти. 1937 - 1938 / Под ред. академика А.Н.Яковлева. – Москва: Международный фонд «Демократия», – 2004; История сталинизма. «Через трупы врага на благо народа» «Кулацкая операция» в Украинской ССР 1937–1941 гг.: [в 2 томах]. – Москва: РОССПЭН, т.1-2. – 2010.

Yalnız SSRİ-nin dağılmasından və Azərbaycanın dövlət suverenliyi əldə etməsindən sonra uzun illər boyu məxfilik qrifi altında mühafizə olunan arxiv materiallarının tədqiqatçılar üçün istifadəyə verilməsi ilə əlaqədar obyektiv tarixi təhlil üçün geniş imkanlar açılmışdır. Z.M.Bünyadovun, E.R.İsmayılovun, C.Ə.Qasımovun, C.P.Həsənov, A.M.Babayevin, Ə.Ş.Tahirzadənin, M.Ş.Cəfərlinin, E.Q.İsayevin, F.S.Cahannurinin, A.N.Məmmədovun, T.Y.Qurbanın və başqalarının [31] tədqiqatları sayəsində repressiyaların mahiyyəti, xüsusilə azərbaycanlılara qarşı yeridilən ikili siyasətin nəticələri tarixi ədalətin bərpası istiqamətində böyük iş görülmüşdür.

Problemin öyrənilməsində və onun bir sıra aspektlərinin açılmasında Azərbaycan alimlərinin 1941-1945-ci illər müharibəsinə həsr olunmuş əsərlərin mühüm köməyi olmuşdur. Qeyd etmək lazımdır ki, 1941-1945-ci illər müharibəsinin tarixinin problemləri 1970-1980-ci illərdə Vətən tarixçiləri nəslinin məktəbini yaratmış – Q.Ə.Mədətovun, M.H.Abasovun, Q.H.Mehdiyevin, T.Ə.Novruzovun, S.M.Kərimovun,

---

[31] Əhmədov, R. Mir Cəfər Bağırov / R.Əhmədov. – Bakı: Yazıçı, – 1982; Həsənov, C.P. “Ağ ləkə”lərin qara kölgəsi / C.P.Həsənov. – Bakı: Gənclik, – 1991; Bünyadov, Z. Qırmızı terror / Z. Bünyadov. – Bakı: Azərnəşr, – 1993; Mircəfər Bağırovun məhkəməsi (Arxiv materialları) / Tərt. ed. N.Rüstəmli, T.Alıyev. – Bakı: Yazıçı, – 1993; Qasımov, C.Yaddaşın bərpası / C.Qasımov. – Bakı: Mütərcim, – 1999; yenə onun: Məhbus tərcümeyi-halı / C.Qasımov. – Bakı: Səda, – 2003; Мамедова, Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане 1920-1930 гг. / Ш.Р. Мамедова. – Баку: Адилоглу, – 2004; Soyqırım analardan başlanır / red. X.Bağırov, tərt. ed. Ş.Məmmədova. – Bakı: Vətən, – 2003; Мамедов, А. Час «икс» переворота М.Д.Багирова и Л.П.Берии / А. Мамедов. – Баку: Изд-во МВД, – 2005; Qurban, T. Düşmənlərdən güclü şəxsiyyət. Mir Cəfər Bağırov haqqında məqalələr toplusu / T.Qurban. – Bakı: Şirvannəşr, – 2006; Джаханнури, Ф. Жертвы сталинских репрессий в Азербайджане / Ф. Джаханнури. – Баку: Мутарджим, – 2010; Məmmədov, N. Azərbaycan dövlətçilik tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər) / N.Məmmədov. – Bakı: BDU-nun nəşriyyatı, – 2012; Исмаилов, Э. История «большого террора» в Азербайджане / Э.Исмаилов. – Москва: Политическая энциклопедия, – 2015; Нифталиев, И. Кадровая политика в Азербайджанской ССР в 1920-1930-е гг. / И.Нифталиев. – Баку: Elm və təhsil, –2018.

Ə.Z.Bağırzadənin və başqalarının tədqiqat mövzusu olmuşdur.[32] Azərbaycanın tarix ədəbiyyatı müasir dövrədək 1941-1945-ci illər müharibəsi dövründə elmin təşkili məsələlərini işıqlandıran bir sıra yeni əsərlərlə[33] zənginləşmişdir.

Sovet hakimiyyətinin ilk illəri hakimiyyətin və elmin münasibətləri probleminin tədqiqi ilk dəfə olaraq sovet elmini araşdıran əcnəbi tarixçilərin əsərlərində [34] həyata keçirilmişdir.

---

[32] Абасов, М.Г. Баку в годы Великой Отечественной войны (1941-1945 гг.) / М.Г.Абасов. – Баку: Азербайджанское государственное издательство, – 1967; yenə onun: Вклад тружеников Баку в достижение Победы над гитлеровской Германией / М.Г.Абасов. – Баку: Военное издательство, – 2000; Мехтиев, Г.Г. Деятельность Коммунистической партии Азербайджана в период Великой Отечественной войны (1941-1945 гг.) / Г.Г.Мехтиев. – Баку: Азернешр, –1967; Мадатов, Г. Азербайджан в Великой Отечественной войне / Г.Мадатов. - Баку: Элм, – 1975; Халилов, А. Азербайджанский филиал Академии наук СССР в годы Великой Отечественной войны (Летопись 1941-1945 гг.) / А. Халилов, Б.Трепетин; – Баку: Элм, – 1975; Керимов, С.М.Вклад ученых Азербайджана в Победу над фашистской Германией / Народное образование и социальный прогресс. Тематический сборник научных трудов. – Баку: Изд-во АГУ, – 1985; Багирзаде, А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны /А.Багирзаде. – Баку: Азернешр, 1989; Mədətov, Q. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində / Q.Mədətov. – Bakı: "Turxan" NPB, – 2018.

[33] Əmrahov M. / Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində / M.Əmrahov. – Bakı: Elm, – 2006; yenə onun: İkinci Dünya müharibəsi. 1939-1945 / M.Əmrahov. – Bakı: Mütərcim, – 2010; Azərbaycan 1941-1945-ci illər müharibəsində: (Məqalələr toplusu) / red. N.G.Qədirova, C.Ə.Bəhramov, R.B.Musayev. – Bakı: Elm, – 2008; Biz birlikdə qalib gəldik! Faşizm üzərində Qələbənin 65 illiyinə həsr olunmuş məqalələr toplusu / red. akademik N.Vəlixanlı. – Bakı: EFS Printpoliqrafiya, – 2010; Azərbaycan alimləri İkinci Dünya müharibəsi illərində (1941-1945) / red. Z.Hacıyeva. – Bakı: İqtisad Universiteti, – 2010; Служили Родине и науке…/ Под ред. акад. А.Ализаде. – Баку: Nafta-Press, – 2012; təkrar nəşr, 2015.

[34] Vucinich, A. The Soviet Akademy of Science / A.Vucinich - Stanford: Stanford University Press, – 1958; его же: Empire of Knowledge. The Akademy of Science of USSR (1917-1970). – Berkeley; Los Angeles; London: University of California Press, – 1984; Joravsky, D. Soviet Marksizm and Natural Science. 1917-1932 / D. Joravsky – New-York: Columbia University Press, – 1961; Graham, L. The Soviet Akademy of Sciences and the Communist Party, 1927-1932 / L.Graham – Princeton: New Jersey: Princeton University Press, – 1967;

SSRİ-də ideoloji cəhətdən qadağan olunmuş mövzular xarici tarix elminin tədqiqat obyektinə çevrilirdi. Həmin əsərlərin bəziləri, bu əsərlərdəki nəticələr, faktlar, dəlillər və sənədlər ciddi dəqiqləşdirmələr tələb edir.

Respublika Elmlər Akademiyasının nəzərdən keçirilən illərdə təşəkkülü tarixi sovet hökumətinin rəsmi dövri nəşrlərində dərc olunan, habelə müxtəlif illərdə işıq üzü görən sənədlər toplusunda nəşr olunmuş partiya – dövlət hakimiyyətinin ali orqanlarının sənədlərinə müraciət olunmadan dolğun öyrənilə bilməz. [35]

Ölkədə [36] və Azərbaycanda elmin tarixinin müxtəlif aspektlərinin tədqiqi üçün işıq üzü görmüş sənədli materiallar böyük mənbə dəyərinə malikdir. Bu materiallarda ölkədə elmə rəhbərliyinin əsas istiqamətləri və metodları, habelə respublikada elmin və elmi müəssisələrin inkişafı tarixi ilə bağlı faktlar və hadisələr işıqlandırılmışdır. [37] Lakin təəssüf ki, bu qəbil işlərin miqdarı hələ də olduqca azdır.

---

Lewis, R.A. Science and Industrialization in the USSR: Industrial research and development 1917-1940. – New York: Holmes and Meier, – 1979; Chodubski, A. Aktywnóść kulturalna polaków w Azerbejdżanie w XIX i na początku XX wieku / A.Chodubski. – Gdańsk: Wydawn. Uczelniane Uniwersytetu Gdańskiego, – 1986; Конквест, Р. Большой террор: [в 2 томах] / Р.Конквест. – Рига: Ракстниекс, – т. 1-2. – 1991; Баберовски, Й. Враг есть везде. Сталинизм на Кавказе / Й.Баберовски. – Москва: РОССПЭН, Фонд «Президентский центр Б.Н. Ельцина», – 2010.

[35] Обзор деятельности правительства за 1927-1928 гг. Отчет VI азербайджанскому съезду Советов. – Баку: Издание делами Совнаркома и ВЭСа, – 1929; Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanları və Azərbaycan SSR Hökuməti qərarlarının xronoloji külliyyatı: Azərb. SSR Nazirlər Soveti yanında Hüquq Komissiyası, 1936-1945 / red. M.A.Həsənov. – Bakı: [s. n.], c. 2. – 1961; Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 4 томах]. – Баку: Азернешр, – т. 1. 1920-1937 гг. – 1986; Декреты Азревкома (1920-1921). Сборник документов / Сост. А.А.Пашаев, М.И.Найдель. – Баку: Азернешр, – 1988; Azərbaycan İnqilab Komitəsi və Xalq komissarları Soveti iclaslarının protokolları: 1920-1922-ci illər / red. A.A.Paşayev – Bakı: Çaşıoğlu, – 2009.

[36] Организация советской науки в 1926-1932 гг. Сборник документов / Под ред. Б.Е.Быховского. – Ленинград: Наука, – 1974.

[37] К 50-летию Азербайджанского ордена Трудового Красного Знамени

Tədqiqat nöqteyi-nəzərindən mərkəzi və yerli statistika qurumlarının statistik topluları kimi mənbələr dairəsi də məlumatlandırıcı olmuşdur.[38]

Dissertasiyanın yazılması zamanı Azərbaycan Respublikasının Dövlət Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidmətinin Arxivinin, AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivinin, Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivinin, ARDA-nın Quba şöbəsinin arxivinin materialları öyrənilmişdir. Problemə dair maraqlı materiallar həmçinin Rusiya Federasiyasının Dövlət Arxivinin fondlarında da üzə çıxarılaraq istifadə edilmişdir.

Tarixşünaslığın icmalına yekun vuraraq, Azərbaycanda elmin inkişafının bəzi məsələlərinin işlənilməsində tədqiqatçılar tərəfindən əhəmiyyətli işlər görüldüyünü qeyd etməklə bərabər, mövzunun bir çox problemlərinin tam həll olunmadığı, problemin

---

института нефти и химии им. М.А.Азизбекова // Azərbaycan arxivi, – Bakı: – 1971. №2; Из истории развития науки и научных учреждений в Азербайджане (1921-1945 гг.) // Azərbaycan arxivi, – Баку: – 1984. №1; Из истории Азербайджанской Государственной Ордена Трудового Красного Знамени Консерватории им. Уз.Гаджибекова (1920-1957 гг.) // Azərbaycan arxivi, –Баку: – 1985. №2-3; Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.). – Баку: Элм, – 1987; Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (AzDETİ) (1923-1929) / red. Z.Hacıyeva. – Bakı: Elm, –2009; Академия – собрание документов: постановления, протоколы, переписка (1920-1991 гг.): [в 2-х томах]. / Руков. проекта М.Г.Сеидбейли. - Баку: Elm, – т. I. – 2020.

[38] Культурное строительство СССР. Статистический сборник. – Москва: Госпланиздат, – 1940; Достижения Советского Азербайджана за 40 лет в цифрах. Статистический сборник / Ред. С.Сулейманов – Баку: ЦСУ, – 1960; Культурное строительство Азербайджанской ССР. Статистический сборник. – Баку: Азербайджанское отделение Госстатиздата, – 1961; Народное хозяйство Азербайджанской ССР в 1962 г. Статистический сборник. – Баку: Госстатиздат. Азербайджанское отделение, – 1963; Советский Азербайджан за 50 лет. Статистический сборник / Отв. за вып. М.В.Авотина. – Баку: ЦСУ Азерб. ССР, – 1970.

ayrı-ayrı aspektlərinin tədqiqatçıların nəzərindən kənarda qaldığı qənaətinə gəlirik. Xüsusilə bir sıra tarixi dövrlər və problemlər heç də bərabər şəkildə dolğun və tutarlı öyrənilməmişdir.

Araşdırmalar göstərir ki, elmi-təşkilati məsələlər, elmi prosesin kadr və informasiya təminatı yalnız bəzi tədqiqatçılar tərəfindən əksər hallarda səthi, ümumiləşdirici, icmal xarakterli işlərin yerinə yetirilməsi çərçivəsində və digər problemlərin araşdırılması zamanı öyrənilmişdir. Bəhs etdiyimiz dövrə yalnız bir neçə ümumi iş həsr olunmuşdur ki, bu işlər də mahiyyətinə və həcminin məhdud olmasına ğörə dolğun və həqiqi mənzərə yarada bilmir. Elmi nailiyyətlərin bir sıra nəticələri zamanın sınaqından keçə bilməmişdir. Tədqiqatlarda Azərbaycanda elmin və mədəniyyətin inkişafı zamanı meydana çıxmış ciddi çətinliklərin üzərindən sükutla keçilmişdir. 1930-1940-cı illərdə repressiyalara və təqiblərə məruz qalmış alimlərin fəaliyyətinə dair araşdırmaları da qənaətbəxş hesab etmək olmaz.

Elmin inkişaf tarixinə dair əsərlərin müəllifləri isə qarşılarına həmin dövrü məxsusi olaraq 1920-1945-ci illərdə respublika Elmlər Akademiyasının formalaşması və yaradılmasına həsr olunmuş dissertasiyada olduğu kimi tam şəkildə araşdırmaq məqsədi qoymamışlar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan SSR Elmlər Akademiyasının respublikanın ali elm müəssisəsi kimi 1920-1945-ci illəri əhatə edən formalaşması və yaradılması tarixi təşkil edir. Tədqiqat işinin predmeti kimi isə elmi müəssisə və təşkilatların yaradılmasının əsas mərhələləri, onların fəaliyyət istiqamətləri, elm sahəsində dövlət siyasəti, akademik tipli müəssisələrdə həyata keçirilmiş inzibati-təşkilati, elmi, kadr, maddi, sosial tədbirlər kompleksi nəzərdən keçirilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi XX əsrin 20-ci illərindən bu günə qədər müxtəlif dillərdə nəşr olunmuş materiallara və arxiv sənədlərinə əsaslanaraq problemin kompleks şəkildə öyrənilməsindən ibarətdir**.** Problemin öyrənilməsi zamanı qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həlli müəyyənləşdirilmişdir:

– XX əsrin 20-40-cı illəri dövrünün xüsusiyyətlərini açmaq, respublikanın iqtisadi və mədəni inkişafında elmin həlledici rolunu göstərmək;

– Azərbaycan elminin təşkilati cəhətdən təşəkkülünü, qaynaqlarını, formalarını və formalaşması yollarını nəzərdən keçirmək;

– respublikada elm və elmi quruculuq sahəsində bolşevik partiyasının dövlət siyasətinin mahiyyətini açmaq;

– sovet totalitar rejimi şəraitində Azərbaycanda elmi potensialın idarəetmə orqanlarının strukturunu təhlil etmək;

– elmin inkişafı və elmi kadrlar hazırlığının ilk mərkəzləri və ocaqları olan ilk ali təhsil müəssisələrinin, onların laboratoriyaları və kafedralarının fəaliyyətini işıqlandırmaq;

– respublikada ilk elmi müəssisə olan "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin təşkili tarixini öyrənmək, Azərbaycan xalqının milli və mədəni dirçəlişi prosesində onun rolunu və əhəmiyyətini aydınlaşdırmaq;

– Azərbaycan SSR-də 1920-ci illərdə həyata keçirilmiş ilk elmi tədqiqatları müəyyənləşdirmək və onların təhlilini vermək;

– respublikada elmi müəssisələrin və ali məktəblərin sovetləşməsinin və köklü surətdə yenidən qurulmasının əsas mərhələlərinin və istiqamətlərinin xüsusiyyətlərini aşkara çıxarmaq;

– respublikanın elm sistemində elmi işin planlı şəkildə aparılmasının, elmi tədqiqatlar sahəsində əhəmiyyətli nailiyyətlərin əsasını qoymuş Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (AzDETİ) yerini və rolunu müəyyən etmək;

– SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin (EA ZF AzŞ) respublikada elmi tədqiqatların genişləndirilməsi sahəsində fəaliyyətini nəzərdən keçirmək;

– respublikada fundamental və tətbiqi tədqiqatların aparıcı mərkəzinin – SSRİ EA Azərbaycan filialının (EA AzF) fəaliyyətini işıqlandırmaq;

– 1930-1940-cı illərdə Azərbaycan SSR-də həyata keçirilmiş elmi kadrların kütləvi repressiyalarını, habelə bir çox görkəmli alimin təqib olunmasını işıqlandırmaq;

– respublikada elmi ziyalıların formalaşması sistemini, onun

əsas formalarını, habelə elmi kadrların maddi və sosial təminatını öyrənmək;

– Azərbaycan alimlərinin beynəlxalq elmi əlaqələrini işıqlandırmaq;

– respublika alimlərinin 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbəyə verdikləri töhfələrini araşdırmaq;

– Azərbaycan SSR-də müstəqil Elmlər Akademiyasının yaradılması prosesini açıb göstərmək.

**Tədqiqat metodları.** Tədqiqatın mərkəzi məsələlərinin işıqlandırılması zamanı metodoloji əsas olaraq tarixilik və obyektivlik prinsipləri çıxış etmişdir. Tədqiqat gedişində tarixi mənbələrlə ənənəvi iş metodlarından – problem-xronoloji, tarixi-müqayisəli tədqiqat metodlarından və retrospektiv təhlil metodundan, habelə bir sıra tarixi prinsiplərdən (analitik, tarixi-sistem, tarixi-müqayisəli) istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

– 1920-1945-ci illərdə Azərbaycan SSR-də Elmlər Akademiyasının təşəkkül tapması və inkişafı mərhələləri vurğulanmış və səciyyələndirilmişdir. Araşdırılan dövr hər birinin xarakterik xüsusiyyətinə görə dörd mərhələyə: 1920-1929, 1929-1932, 1932-1935 və 1935-1945-ci illər bölünmüş və 1945-ci ildə respublika Elmlər Akademiyasının yaradılması ilə nəticələnmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan xalqının elmi fikri sovet elmi tarixinin ayrılmaz, lakin eyni zamanda özünə məxsus hissəsi kimi inkişaf edirdi. Bütün sovet elminə xas olan problemlər, meyllər və qanunauyğunluqlar olduğu kimi Azərbaycan elmi üçün də səciyyəvi idi.

– Birinci onillikdə respublikada elmi quruculuq geniş vüsət aldı – elmi institutlar yaradıldı, tədqiqatla məşğul olan milli kadrlar çoxaldı, ümumi cizgilərdə təşkilati quruluş formalaşdı, özü də bütün gələcək sistemin formalaşması üçün əsas olacaq mahiyyət üzrə. Bu mərhələ elmin təşkili və praktika ilə formalarının axtarışı ilə səciyyəvidir. Elmin gələcək inkişafı yollarını müəyyən edən ümumi və ən vacib prinsipləri məhz o zaman təyin edilməyə başlandı. Elmə dövlət rəhbərliyinin nəzəri və təşkilati əsasları məhz həmin vaxt qoyuldu.

– Azərbaycan hökumətinin atdığı ilk addımlardan biri respublika səviyyəsində tədqiqat işinin tənzimlənməsi və əlaqələndirilməsi üzrə vahid mərkəzin, elmi idarəetmənin ilk orqanlarının, həmçinin elmi-tədqiqat müəssisələrinin vahid dövlət şəbəkəsinin yaradılması oldu. 1930-cu illərin başlanğıcında elmi müəssisələrin şəbəkəsi yaradılmış və sabitləşmişdi. Nə qədər paradoksal olsa da, elmi müəssisələrin ən qızğın vüsət etməsi dövrü 20-ci illərin əvvəllərindən 30-cu illərin əvvəllərinədək olan dövrə təsadüf edir.

– Respublikada elmi işin əsas mərkəzlərindən biri, əslində respublikanın ilk elmi mərkəzi – Azərbaycanın Tədqiq və Tətöbbə Cəmiyyəti (ATTC) olmuşdur. ATTC seksiyalar və komissiyalar əsasında müxtəlif elm və mədəniyyət sahələrini yaratmaqla elmin və həyatın bütün istiqamətləri üzrə böyük elmi-tədqiqat işi aparırdı, yerli əhalidən elmi ziyalıların gənc kadrlarını yetişdirirdi. Cəmiyyət fəaliyyətə başladığı ilk gündən özünü gələcək Elmlər Akademiyasının prototipi hesab edirdi.

– "Böyük dönüş" dövrünün başlanması (1929) bütün sahələrdə olduğu kimi elmdə də yeni mərhələ olmaqla, elmin idarə edilməsində mərkəzləşdirilmənin, bürokratikləşdirilmənin və siyasiləşdirilmənin daha da güclənməsinə gətirib çıxardı. 1929-cu ildə yaradılmış Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda (AzDETİ) araşdırılan geniş elmi problemlərin həlli sənayenin, kənd təsərrüfatının və mədəni quruculuğun inkişafına təkan verdi, həmçinin AzDETİ ali məktəblər və texnikumlar üçün kadrlar hazırladı. AzDETİ həmdə respublikada marksist elmi mərkəzlərdən birinə çevrildi.

– XX əsrin 30-cu illərinin əvvəllərində sənayeləşdirilmə, kollektivləşdirmə və genişmiqyaslı "mədəni inqilab" nəticəsində iqtisadiyyatın intensiv inkişafı SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin (EA ZFAzŞ) yaradılmasına imkan verdi. EA ZFAzŞ yaradılması və nisbətən qısa müddət (1932-1935-ci illər) fəaliyyət göstərməsi respublika Elmlər Akademiyasının təşəkkül tapmasında növbəti mərhələ oldu.

– 1935-ci il oktyabrın 25-də SSRİ EA-nın müstəqil Azərbaycan filialının (EA AzF) təşkili respublika elminin yeni,

daha yüksək inkişaf səviyyəsinə qalxdığını göstərirdi. 30-cu illərin əvvəllərindən başlayaraq Azərbaycan elmi yeni status, akademik elm statusu qazanır. EA AzF-nın mövqeyi təkcə onunla müəyyən olunmurdu ki, o aparıcı fundamental tədqiqatlar mərkəzi idi, həmçinin fəaliyyət sferasına ayrı-ayrı elm sahələrinin deyil, böyük elmlər kompleksinin daxil olması ilə müəyyənləşirdi. Azərbaycan filialının alimlərinin fəaliyyətinin ana xəttini, heç şübhəsiz, Sovet İttifaqının iqtisadi-təsərrüfat inkişafı mənafelərinin təmin edilməsi ilə bağlı tədqiqatlar təşkil edirdi.

– 1935-1941-ci illər dövrü EA Azərbaycan filialının tarixində uğurlarla yanaşı, ən faciəvi dövrlərdən biri olmuşdur. Repressiyalar nəticəsində elmi kadrların sayının azalması, filial sistemində tez-tez baş verən təşkilati dəyişikliklər, institutların birləşdirilməsi, bütün bunlar respublikada elmin inkişafı yolunda ciddi çətinliklər yaradırdı.

– Rusiya, Avropa və Türkiyənin ali məktəblərində təhsil almış "köhnə ziyalılar"ın nümayəndələrinin real sayı sovet dövründə şüurlu surətdə azaldılırdı, onların gerçək sayı sovet ədəbiyyatında təqdim olunandan qat-qat çox idi. 30-cu illərdə bolşeviklərin "köhnə ziyalılar"a qarşı həyata keçirdikləri repressiya siyasəti görkəmli ziyalıların və maarifçilərin məhv edilməsi, "köhnə ziyalılar"ın sosial birlik kimi qeyri-təbii olaraq tez itməsi, onların yerinə isə yeni gənc, partiya sovet elmi ziyalıların gəlməsi ilə nəticələndi.

– Azərbaycan alimləri 1941-1945-ci illər müharibəsi dövründə düşmən üzərində taleyüklü qələbənin qazanılmasına nəhəng töhfələr verdilər. Bakı nefti II Dünya müharibəsində SSRİ-nin faşizm üzərində qələbəsində həlledici amillərdən biri olmuşdur. Müharibənin qələbə ilə başa çatmasına az qalmış – 1945-ci il martın 27-də Azərbaycan Elmlər Akademiyasının yaradılması respublikanın mədəni həyatında mühüm hadisə oldu. Akademiyanın yaradılması respublikada elmin təşkilinin formalaşmasında böyük və məhsuldar bir mərhələnin sonu, vahid milli elm mərkəzinin, onun baş qərargahının yaradılması üçün uzun illər boyu aparılmış işin yekunu oldu.

**Tədqiqatın elmi yeniliyi.**

– mahiyyət etibarı ilə təqdim olunmuş dissertasiya Azərbaycan tarixşünaslığında elmin inkişafı problemlərinin, respublikanın iqtisadiyyatında və mədəniyyətində onun rolunun, 1920-1945-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının təşəkkülü və fəaliyyətinin mərhələlərinin kompleks şəkildə araşdırıldığı ilk tədqiqatlardan biridir;

– arxiv sənədlərinin geniş dairəsinin, eləcə də son illərdə nəşr olunmuş ədəbiyyat əsasında Azərbaycan tarixşünaslığında öz əksini tapmamış, yaxud da az işıqlandırılmış bir sıra problemlər ilk dəfə olaraq tədqiqata cəlb edilmiş və yeni səpkidə həll edilmişdir;

– dissertasiyada ilk dəfə olaraq sovet hökumətinin elm sahəsində məqsədləri və onun həyata keçirilmə metodları, Azərbaycan SSR-də 1920-ci illərdə elmi-tədqiqat fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi və idarə olunması mexanizminin inkişafı, Azərbaycan SSR-də dövlət elm siyasətinin əsas istiqamətlərinin gerçəkləşdirilməsi yolları, dövlət elmi-tədqiqat müəssisələri şəbəkəsinin, elmi qurumların strukturlarının formalaşması göstərilir;

– Azərbaycan SSR-də ilk elmi mərkəzlərin meydana gəlməsi və inkişafı, profilinə görə müxtəlif elmi müəssisələrin, cəmiyyətlərin, assosiasiyaların və təşkilatların yaradılması, Azərbaycan elminin təşəkkülü və inkişafı yolları tədqiqat işində ilk dəfə olaraq ətraflı işıqlandırılır. Ölkənin sənayeləşdirilməsi çoxsaylı tətbiqi tədqiqat məsələlərinin həlli zərurətinə gətirib çıxartdı ki, bu da sahə elmi-tədqiqat müəssisələrinin yaradılmasına təkan verdi;

– dissertasiyada elmin ayrı-ayrılıqda inkişaf edən: akademik, ali təhsil, sahə və zavod sektorlarına bölünməsi ilə səciyyələnən fenomenin yaranması, onların elmi fəaliyyətinin əsas istiqamətlərini və respublika elminin inkişafına verdiyi töhfələri ilk dəfə nümayiş etdirilir;

– tədqiq olunan dövrdə elmi elitanın hakimiyyətlə qarşılıqlı münasibətlərinin strategiyası, elmi əməyin təşkilinə yeni sovet prinsip və formalarının tətbiqi praktikası ilk dəfə araşdırılır;

– fundamental və tətbiqi profilli bir çox tədqiqat müəssisələrinin əsasını qoymuş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elm və mədəniyyətin müxtəlif sahələrinin inkişafında

fəaliyyəti Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq kompleks şəkildə araşdırılıb;

– AzDETİ-nun yaradılması ilə marksizm-leninizmin elmə mütəşəkkil qaydada tətbiqinin mahiyyəti, həmçinin ictimai və təbii elmlərin öncül və perspektivli istiqamətlərinin çoxunun rəsmi şəkildə qadağan olunduğu XX əsrin 20-30-cu illərində aparılan elmi diskussiyalar ilk dəfə göstərilib;

– respublikanın elmi müəssisələrinin əsas fəaliyyət istiqamətləri, müxtəlif profilli iri elmi müəssisələrin tez-tez yenidən təşkil olunması, inkişafı və fəaliyyəti, AzDETİ, EAZFAzŞ, EA AzF alimlərinin respublikada fundamental və tətbiqi elmlərin inkişafı sahəsində fəaliyyəti ilk dəfə işıqlandırılır;

– Azərbaycanda 30-cu illərdə "Alimlər işi" üzrə mühakimə edilən alimlərin 150-dən çox arxiv-istintaq sənədinin öyrənilməsi əsasında elm sahəsində kütləvi siyasi repressiya, ölkənin xalq təsərrüfatı obyektlərinin inşasında məhkumların əməyindən istifadə olunması problemi ətraflı işıqlandırılır;

– dissertasiyada ilk dəfə elmi ziyalıların ictimai təşkilatlarının və birliklərinin, o cümlədən Alimlərə yardım komitəsinin, Elmi işçilər Seksiyasının – alimlərin ilk həmkarlar ittifaqı birləşmələrinin fəaliyyəti, onların "yenidən tərbiyələnməsinin" və metodoloji ixtisas dəyişmələrinin formaları və metodları, Türkiyə, Rusiya və Avropa ali məktəblərində təhsil almış "köhnə ziyalılar"ın sovet dövründə güclü surətdə azaldılan nümayəndələrinin gerçək sayı göstərilir;

– tədqiqat işində elmi ziyalıların hazırlanması, onların cəmiyyətdəki yeri və rolu, peşə, ixtisas və sosial-demoqrafik strukturunda baş verən dəyişikliklər, əmək, istirahət şərtlərinin öyrənilməsi, Azərbaycan alimlərinin ilk beynəlxalq əlaqələrinin təhlil edilməsi kimi problemlər ilk dəfə olaraq öz əksini tapıb;

– dissertasiyada 1941-1945-ci illər müharibəsi dövründə elmi müəssisələrin fəaliyyətinin əsas istiqamətləri və Azərbaycan alimlərinin faşist Almaniyası üzərində qələbənin qazanılmasında və ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində töhfələri və s. öz əksini tapıb;

– tədqiqat zamanı 1945-ci ildə yaradılmış Azərbaycan SSR

Elmlər Akademiyasının cəmiyyətin, iqtisadiyyatın və mədəniyyətin inkişafında, elmi ziyalı kadrlarının hazırlanmasında yeri və rolu, respublikanın mədəni-intellektual potensialının yaradılmasında töhfəsi müəyyən edilmişdir;

Belə ki, dissertasiya müasir Azərbaycan tarixşünaslığında respublikanın taleyüklü, dramatik dövründə elmin və onun başlıca elmi müəssisəsinin – Azərbaycan SSR Elmlər Akademiyasının təşəkkülü tarixi Azərbaycan tarixşünaslığında ilk kompleks tədqiqat işi olmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti bir sıra məsələlərin yeni həlli üsullarını irəli sürülməsinə, eləcə də müəyyən anlayış, hadisə və proseslərin mahiyyətinin şərh edilməsinə müəllifin yeni baxış və yanaşmalarının əsaslandırılması ilə şərtlənir. Tədqiqatın nəticələrindən sözügedən dövrün öyrənilməsində, Azərbaycan tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında, Azərbaycanın, elm və mədəniyyəti tarixi üzrə elmi tədqiqatlarda, ali məktəblərdə mühazirə oxunmasında istifadə oluna bilər. Araşdırmanın praktiki əhəmiyyəti onun nəticə və müddəalarının, işdə ilk dəfə istifadə olunan mənbələrin yeniliyi ilə müəyyən edilir. Bu da dissertasiyanın Azərbaycan tarixşünaslığını əhəmiyyətli şəkildə zənginləşdirəcəyinə ümid etməyə imkan yaradır.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları 9 monoqrafiyalarda və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların elmi nəticələrinin dərc olunması tövsiyə edilən dövrü elmi nəşrlərdə dərc olunmuş məqalələrdə öz əksini tapmışdır. Dissertasiyanın bir sıra problemləri Azərbaycanda və xaricdə (Türkiyə, Rusiya, İngiltərə, Polşa və b.) işıq üzü görmüş məruzələrdə və elmi nəşrlərdə, habelə beynəlxalq konfranslarda edilmiş məruzələrdə əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın mədəniyyəti tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi.** Giriş, 5 fəsil, 13 yarimfəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 494334 (ədəbiyyat siyahısı istisna olunmaqla) işarədən ibarətdir. Giriş: işarə sayı –

46086, I fəsil: işarə sayı – 80506, II fəsil: işarə sayı – 88628, III fəsil: işarə sayı – 106066, IV fəsil: işarə sayı – 71392, V fəsil: işarə sayı – 78761, nəticə: işarə sayı – 20708.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın girişində** mövzunun aktuallığı, xronoloji çərçivələri, tədqiqatın öyrənilmə dərəcəsi, mənbə bazası, məqsəd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi əsaslandırılmış, işin praktiki əhəmiyyəti və aprobasiyası müəyyənləşdirilmişdir.

Dissertasiyanın **"1920-ci illərdə Azərbaycan SSR-də elmi idarəetmə orqanlarının yaradılması və elmi müəssisələr sisteminin formalaşmağa başlanması"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. **"Azərbaycanda elmə rəhbərlik edən orqanların yaradılması və ilk elmi mərkəzlərin təşkili"** adlanan birinci yarımfəsildə vurğulanır ki, XX əsrin 20-ci illəri Azərbaycan elminin görünməmiş inkişafı ilə yadda qaldı. İlk günlərdən Azərbaycan dövləti öz səylərini milli elm və mədəniyyətin dirçəldilməsinə və inkişafına yönəltmişdir. Azərbaycan hökumətinin ilk aktlarından biri Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 28 aprel tarixli 1 saylı dekreti ilə respublika miqyasında tədqiqat işinin vahid tənzimləmə və koordinasiya mərkəzinin – Azərbaycan SSR Xalq Maarif Komissarlığının (XMK) yaradılması oldu. [39]

Respublikada elm və təhsil sahəsində bütün işlərə ideya rəhbərliyini həyata keçirmək üçün Xalq Maarif Komissarlığı nəzdində 1921-ci il fevralın 20-də ali məktəb şöbəsinin əsasında Akademik şöbə yaradıldı. Onun tərkibinə elmi istiqamətli bütün müəssisələr daxil oldu. [40] AK(b)P MK-nın 1924-cü il 21 fevral

---

[39] Алимирзоев, Х.О. Азербайджанский государственный университет за 50 лет / Х.О.Алимирзоев. – Баку: Азербайджанское государственное издательство, – 1969, – с. 42.

[40] Протокол заседания Коллегии Наркомпроса Азербайджанской ССР «Об организации Академического отдела при Наркомпросе» №7 от 20 февраля 1921 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №57, siyahı №1, iş

tarixli qərarı ilə Xalq Maarif Komissarlığı yanında elmi müəssisələrin fəaliyyətinə nəzarət etmək, alimlərin səylərini birləşdirmək və elmi kadrları hazırlamaq üçün Elmi şura yaradıldı. [41] 1926-cı ildə Elmi şura Dövlət Elmi Şurasına (DEŞ) çevrildi. [42]

Ümumilikdə gənc və mürəkkəb təşəkkül dövrünü yaşayan elmə rəhbərliyi dövlət hakimiyyətinin ali sovet orqanları – Azərbaycan SSR Xalq Komissarları Soveti (XKS) və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (MİK) həyata keçirirdi.

Tədricən Azərbaycanda elmin təşkili və idarəsinin sərt mərkəzləşdirilmiş idarə-sahə sistemi təşəkkül tapırdı. Bütün iqtisadi çətinliklərə baxmayaraq, respublikada elm sahəsində siyasətin əsas problemlərindən biri elmi kadrların kəskin surətdə çatışmazlığı, elmi təşkilatların ehtiyaclarına dövlət büdcəsindən ayrılan vəsaitin artırılması səyləri, elmi işçilərin əmək və həyat şəraitinin yaxşılaşdırılması idi. AXTŞ, Xalq Səhiyyə Komissarlığı, Xalq Torpaq Komissarlığı və digər komissarlıqlar öz profilləri üzrə elmi təşkilatlara əhəmiyyətli yardım göstərirdilər. Xalq Komissarları Soveti elm sahəsinə smetadan artıq və xüsusi təxsisatlar ayırırdı. Belə ki, dövlət elmi təşkilatların inkişafına 1924-1925-ci illərdə 54031, 1925-1926-cı illərdə 86153, 1926-1927-ci illərdə 99786, 1927-1928-ci illərdə isə 117256 rubl ayırmışdı. [43] Əslində, 20-ci illərin sonunda dövlətin elmə ayırdığı təxsisat xeyli çox olub, statistika məlumatlarına, ümumiyyətlə, nəzərə alınmayan bir çox kanallar vasitəsilə köçürülürdü.

Elmin bazasının möhkəmləndirilməsinin ən mühüm amillərindən biri elmi-tədqiqat müəssisələrinin vahid dövlət şəbəkəsinin yaradılması oldu. Elmi fəaliyyətin peşəkarlaşması və elmlərin diferensiasiyası elmi cəmiyyətlərin, muzeylərin,

---

№176, vərəq –10.

[41] Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.). / ред. акад. Т.Н.Шахтахтинский [и др.]. – Баку: Элм, – 1987, –с. 30.

[42] Отчет о деятельности ГУСа (с 1/XI 1926 г.-1/XI1928 г.) // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №57, siyahı №7, iş №3, vərəq – 2, 4.

[43] Народное образование в Советском Азербайджане (1920-1927 гг.). – Баку: Издание НКП АССР, – 1928, с. – 148.

komitələrin, özəklərin, komissiyaların, institutların, assosiasiyaların, dərnəklərin, ali təhsil müəssisələrinin, kitabxanaların, dövri elmi jurnalların, konfransların və simpoziumların sayca artmasına, respublikada 1920-ci illərin əvvəllərində ilk dəfə yaradılan elmi məktəblərin coşqun inkişafına gətirib çıxarmışdı. Nə qədər paradoksal görünsə də, elmi müəssisələrin ən təsir doğuran artımı qısa zaman kəsiyinə – 1920-ci illərin əvvəllərindən 1930-cu illərin əvvəllərinə kimi olan dövrə təsadüf edirdi.

**"Respublikanın ilk elmi müəssisəsinin – "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti (1923-1929-cu illər)"** adlanan ikinci yarımfəsildə faktiki material əsasında 5 may 1923-cü ildə yaradılmış respublikada ilk elmi müəssisə olmuş, milli elmimizin təşəkkül tapmasında və inkişafında yaradıcı rol oynamış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti nəzərdən keçirilmişdir.

1925-ci il mayın əvvəlində, mühüm ictimai əhəmiyyəti nəzərə alınaraq, Cəmiyyət Azərbaycan hökumətinin –Azərbaycan MİK-in sərəncamına verildi.[44]

Cəmiyyət öz seksiyaları və komissiyaları bazasında elm və mədəniyyətin müxtəlif sahələrini tədqiq etməyə başlamış, elmi ekspedisiyalar keçirmiş, müxtəlif ezamiyyətlər, nüfuzlu qurultaylar, konfranslar, iclaslar, ekskursiyalar, müşavirələr təşkil etmiş, kütləvi mühazirələr oxumuş, Azərbaycan haqqında biliklərin yayılmasına kömək etmiş, elmi işlər dərc etmiş, sərgilər, muzeylər, kitabxanalar təşkil etmişdir. Və bütün fəaliyyəti ilə respublikada bir sıra mühüm elm sahələrinin yaranmasına və inkişafına, respublikanın elmi potensialının inkişafına və möhkəmlənməsinə kömək etmişdir.[45]

Azərbaycanın planauyğun və hərtərəfli elmi araşdırılması, habelə bu proseslərə geniş ictimaiyyəti cəlb etmək məqsədi ilə

---

[44] Академия наук Азербайджанской ССР. 20 лет / Под ред. Академика З.И.Халилова. – Баку: Элм, – 1966, с.22; Работа Общества обследования и изучения Азербайджана при АзЦИКе за 1926-1928 гг. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №389, siyahı №1, iş №32, vərəq – 1.

[45] Выписка из протокола заседания Коллегии Наркомпроса «Об утверждении Устава Общества» №20 от 10 мая 1923 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond № 57, siyahı № 8, iş №11, vərəq – 9.

Cəmiyyət 1924-cü ildə respublika qəzalarında yerli şöbələrini təşkil etdi. Nəticədə respublikada bütün elmi-tədqiqat fəaliyyətini uzlaşdırıldı və istiqamətləndirildi, bununla da faktiki olaraq iri elmi mərkəzə çevrildi. Cəmiyyət əksər Bakı alimlərini, respublikanın müxtəlif dövlət və elmi təşkilatlarında və müəssisələrində çalışan "köhnə ziyalılar"ı birləşdirirdi.

Milli respublikaların, o cümlədən Azərbaycanın təbii sərvətlərinin kompleks şəkildə, çoxillik öyrənilməsinə başlanıldı. Təbii ehtiyatların mənimsənilməsi SSRİ-yə ağır sənayenin, xüsusən yanacaq, maşınqayırma, elektroenergetika, metallurgiya və kimya sənayesinin əsas sahələrinin sürətlə inkişaf etdirməyə imkan verdi.[46]

Cəmiyyət öz fəaliyyətinin lap əvvəlindən gələcək Elmlər Akademiyasının əsası kimi qəbul edirdi. Bunu Xalq maarif komissarı Mustafa Quliyevin 8 noyabr 1925-ci ildə Cəmiyyətin 2 illiyinin bayram edilməsi ilə əlaqədar təntənəli tədbirdə çıxışında dedikləri də təsdiq edir: "Azərbaycan bu Cəmiyyətin timsalında respublikanın gələcək Elmlər Akademiyasını görür". [47]

**"Akademiya tipli elmi müəssisələr sisteminin formalaşması Azərbaycan SSR-də elmin inkişafının yeni mərhələsi kimi (1929-1935-ci illər)"** adlı ikinci fəsildə Azərbaycanda akademiya tipli elmi müəssisələrin yaradılmasının ilkin şərtləri tədqiq olunur. **"Elmi müəssisələr sisteminin yenidən qurulması. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (AzDETİ) fəaliyyəti (1929-1932-ci illər)"** adlı birinci yarımfəsildə sovet hakimiyyətinin və ölkədəki şəraitin tələblərinə uyğun olaraq, elmi müəssisələrin və ali məktəblərin yenidən təşkili, alimlərin elmi fəaliyyətinin yenidən qurulması problemi ətraflı surətdə nəzərdən keçirilmişdir.

---

[46] История социалистической экономики СССР: [в 7 томах] / Гл. ред. И.А. Гладков – Москва: Наука, – т. III (1926-1932 гг.). – 1977, – с.170-172.

[47] Зифельдт, А.Р. Деятельность «Общества обследования и изучения Азербайджана» за два года. 2 ноября 1923 г. – 8 ноября 1925 г.: Доклад, читанный на торжественном заседании по случаю 2-летия общества, состоявшегося 8 ноября 1925 г. // Известия Общества обследования и изучения Азербайджана. – Баку: – 1925. №1, – с. 111.

1929-cu ilin may ayından SSRİ özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Həmin dövrdə ölkənin sənayeləşdirilməsi kursu götürülmüş, dövlətin iqtisadi qüdrətinin sürətlə artırılması, inkişaf etmiş kapitalist ölkələrindən geriliyin maksimum sürətlə azaldılması prosesinə başlanılmışdı.

Xalq təsərrüfatının müxtəlif sahələrinin sürətli inkişafı, sənayenin və kənd təsərrüfatının modernləşməsinin yüksək templəri, iqtisadiyyatın sahələrinin mürəkkəbləşməsi ixtisaslı kadrların hazırlığı, elmi tədqiqatların intensivləşdirilməsi və sürətləndirilməsi məqsədi ilə respublikada yeni qurumların yaradılması və mövcud olanların möhkəmləndirilməsi zərurətini doğururdu.

1920-ci illərin axırlarında elmin təşkilində inzibati amirlik sisteminin inkişafı, xüsusən elmi fəaliyyətin ideolojiləşdirilməsi ilə əlaqədar, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin mövcudluğuna xitam verildi. 1929-cu il oktyabrın 9-da AzMİK-in qərarı ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna (Az.DETİ) çevrildi.[48]

Azərbaycanda bütün əsas sosial problemlərin elmi cəhətdən işlənilməsinin mərkəzi olmuş Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (AzDETİ; İnstitut) sənaye, kənd təsərrüfatı və mədəni quruculuğun inkişafı ilə bağlı elmi məsələlərin geniş dairəsini tədqiq edirdi. AzDETİ-nin yaradılması, elmi siyasətdə bəzi əyintilərə baxmayaraq, elmi işin planauyğun surətdə aparılmasının başlanğıcını qoydu, elmi tədqiqatlar sahəsində əhəmiyyətli nailiyyətlərə təkan verdi. Qısa müddət ərzində AzDETİ digər elmi müəssisələrlə birlikdə respublikanın təbii, xüsusən də neft, geoloji, energetika sərvətlərinin öyrənilməsi, Azərbaycan xalqının tarixi keçmişinin araşdırılması, dilçiliyin və ədəbiyyatşünaslığın geniş

---

[48] Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.). / ред. акад. Т.Н.Шахтахтинский [и др.]. – Баку: Элм, – 1987. – с.45; О первых действительных членах АзГНИИ при АзЦИКе 9 октября 1929 г. / Собрание узаконений и распоряжений рабоче-крестьянского правительства Азербайджанской Социалистической Советской Республики, 1929, №21, ст.359, – с.786-788.

məsələlər dairəsinin işlənib hazırlanması, Azərbaycanın və onunla qonşu Şərq ölkələrinin tarixinə dair ilkin qaynaqların nəşr edilməsi, beynəlxalq elmi əlaqələrin inkişaf etdirilməsi üzrə əhəmiyyətli nəticələrə nail oldu. Bütün bunlar İnstitutun tədricən respublikada elmin aparıcı mərkəzinə çevrilməsi üçün əsas zəmin oldu. Elmlər Akademiyası da məhz bu zəmin əsasında yaradıla bilərdi.

**“SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin (EA ZFAzŞ) respublikada elmi tədqiqatların genişləndirilməsində rolu (1932-1935-ci illər)”** adlı ikinci yarımfəsildə EA ZFAzŞ-nin yaradılması və onun Azərbaycanda elmin inkişafında rolu nəzərdən keçirilir. Azərbaycanın tükənməz yeraltı sərvətləri, pambığı, subtropik bitkiləri, balıq vətəgələri və mineral qazıntıları ilə bərabər xalq təsərrüfatının yenidən qurulması və mədəniyyətin inkişafı elmi tədqiqatların, respublikanın məhsuldar qüvvələrinin kompleks öyrənilməsinin genişləndirilməsini və dərinləşməsini təkidlə tələb edirdi. Zaman özü daha iri və çoxsahəli elmi mərkəzin təşkili tələbini irəli sürürdü. Bu səbəbdən də, Azərbaycan SSR MİK-in 29 dekabr 1932-ci il tarixli qətnaməsi ilə AzDETİ və Azərbaycan məhsuldar qüvvələrin öyrənilməsi üzrə institutun bazasında SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi (EA ZFAzŞ) yaradıldı.[49]

Filialda ilk elmi mərkəzlər və özəklər – fizika, kimya, energetika, geologiya, torpaqşünaslıq, botanika, zoologiya, tarix, dil, ədəbiyyat və s. (cəmi 11 sektor) – təsis olunmuşdu.[50] EAZFAzŞ-nin strukturuna Ekspedisiya tədqiqatları komissiyası da daxil oldu. Komissiya bütün elm sahələri üzrə respublikanın demək olar ki, bütün rayonlarını əhatə edən böyük işlər görür, bir sıra tədqiqatlar üçün elmi-praktiki baza yaradırdı.

---

[49] Постановление Азербайджанского Центрального Исполнительного Комитета «Об Азербайджанском отделении Закавказского филиала АН СССР» от 29 декабря 1932 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond №379, siyahı №1, iş №4752, vərəqlər – 1-2.

[50] Академия наук СССР. Закавказский филиал. Азербайджанское отделение (АзОЗФАН). Отчет за 1934 г. // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 3, siyahı №1, iş №129, vərəq – 15-17.

Yarımfəsildə göstərilmişdir ki, Azərbaycanın tarixən ölkənin başlıca neft bazası kimi təşəkkül tapması, habelə respublikada mineral xammalın digər növlərinin zəngin ehtiyatları burada kimyəvi, geoloji, torpaq və sair tədqiqatların aparılmasını zəruri etmiş və onların prioritetliyini müəyyənləşdirmişdi. Respublikanın məhsuldar qüvvələrinin, statistikanın, seysmologiya və meteorologiyanın, epidemiologiyanın, fizikanın, energetikanın, ekspedisiya və muzey işinin öyrənilməsi və istifadəsi kimi mühüm sahələrdə elmi fəaliyyət ümumdövlət vüsəti almışdı.

1933-cü ilin yanvarın 12-də respublika hökuməti EA ZFAzŞ-nə Azərbaycanın tarixi, maddi mədəniyyəti tarixi, respublikanın incəsənəti, dili və ədəbiyyatı sahəsində elmi-tədqiqat işlərinə başlamaq haqqında göstəriş verdi.[51] ÜİK (b)P MK və SSRİ XKS-nin 1934-cü il 16 may tarixli "SSRİ məktəblərində mülki tarixin tədrisi haqqında" qərarına uyğun olaraq, 1934-cü ildə Azərbaycan Dövlət Universitetində Tarix fakültəsi açıldı.[52] 1940-cı ildə universitetdə Azərbaycan tarixi kafedrası yaradıldı.[53] Bundan sonra ölkənin bütün ali məktəblərində olduğu kimi, Azərbaycanda da tarix elmi, daha geniş miqyasda inkişaf etməyə başladı. Azərbaycanlı tarixçi-mütəxəssis kadrların hazırlığı genişləndi və yaxşılaşdı.

EAZFAzŞ-nin qısa müddətdə (1932-1935-ci illər) fəaliyyət göstərməsinə baxmayaraq, respublikada elmin inkişafının mühüm hadisəsi olmaqla, xalq təsərrüfatı üzrə elmi tədqiqatların genişlənməsinə təkan verdi. Bu qurum respublika Elmlər Akademiyasının təşəkkülündə keyfiyyətcə yeni mərhələ idi.

Dissertasiyanın "**SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının (EAAzF) respublikada fundamental tədqiqatlar mərkəzinə çevrilməsi. Azərbaycanın elm xadimləri "böyük terror" illərində (1935-1941-ci illər)**" adlanan üçüncü fəsli üç

[51] Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.), – с. 55.

[52] Ибрагимов З.И., Токаржевский Е.А. Академия наук Азербайджанской ССР и развитие исторической науки // Известия АН Азербайджанской ССР. Серия общественных наук, – 1965, №3, – с. 4.

[53] Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.). – Баку, 1987, – с. 58.

yarımfəsildən ibarətdir. **"Təbiətşünaslıq və texniki elm sahələrində fundamental və tətbiqi tədqiqatların əsas sahələri"** adlanan birinci yarımfəsildə Azərbaycanda müstəqil filialın təşkili prosesinə həsr olunub. Dissertasiyada qeyd olunur ki, regional akademik elmi müəssisələrin, o cümlədən Azərbaycanda təşəkkül tapması SSRİ EA-nın təşəkkülü ilə eyni vaxtda baş verirdi. Azərbaycan elmi sovet elmi ilə birlikdə böyüyür və möhkəmlənirdi. Alimlərlə bağlı qanunvericilik aktları bütün müttəfiq respublikalarda eyni qüvvəyə malik idi. Çünki həmin respublikalarda prinsipial əhəmiyyətli məsələlərlə bağlı RSFSR-in nümunəsi üzrə analoji qərarlar qəbul olunurdu.

SSRİ EA Rəyasət Heyətinin 1935-ci il 25 oktyabr tarixli iclasında Azərbaycanda müstəqil filialın (mərkəzi Bakıda olmaqla) yaradılması haqqında qərar qəbul edildi. [54] EAAzF-nın təşkili respublikada elmin yeni, daha yüksək inkişaf səviyyəsinə qaldırılması demək idi. 1930-cu illərin əvvəllərindən Azərbaycan elmi yeni, akademik elm statusu qazanmış oldu. EAAzF əsas bilik sahələrini və profil müəssisələri birləşdirən daha yüksək səviyyəli iri təşkilata, aparıcı elmi mərkəzə çevrilirdi.

Respublikada təbiətşünaslıq və texniki elmlərin inkişafı üzrə alimlərin elmi-tədqiqat fəaliyyəti geniş material dairəsi əsasında hərtərəfli işıqlandırılmışdır. Sovet iqtisadiyyatı üçün səciyyəvi olan sənayenin, xüsusən də ağır sənayenin coşqun inkişafı EAAzF-dan ilk növbədə geologiya məsələlərinin işlənilməsini tələb edirdi.

Bəhs olunan dövrdə filialın kimyaçıları qarşısında kimya sənayesinin yaradılması və kimyəvi xammalın yeni qaynaqlarının axtarılıb tapılması, habelə neftin emalının təkmilləşdirilməsi və müasir neft-kimyanın inkişafı ilə bağlı böyük vəzifələr dururdu.[55] EAAzF-ı kimya elmi sahəsində özünün nəzəri tədqiqatları ilə xalq

---

[54] Академия наук СССР. Выписка из протокола заседания Президиума от 25 октября 1935 г. «Об учреждении в системе Академии наук СССР Азербайджанского филиала // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 3, siyahı №1, iş №2, vərəq – 102-104.

[55] В Президиуме АзФАН // Известия АзФАН СССР, – Баку: – 1940. №2, – с. 160.

təsərrüfatının praktiki vəzifələrinin həllində və ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində mühüm rol oynadı.

EAAzF-nın təşkili ilə neft hasilatı ilə bağlı fizika sahəsində tədqiqatlar, neftin və neft məhsullarının fiziki xassələrinin, habelə maddələrin quruluş və xassələrinin öyrənilməsi sahəsində növbəti inkişaf mərhələsinə qədəm qoydu.[56] Respublikanın elektrikləşməsi və yanacaq-enerji balansı ilə əlaqəli olan elmi-texniki və iqtisadi problemlərin dairəsi Energetika sektorunda öyrənilməkdə davam edirdi.[57]

Biologiya elmi sahəsində problemlərin tədqiqi 1930-cu illərin ortalarından etibarən EAAzF-nın üç elmi müəssisəsində – botanika, zoologiya institutlarında və Torpaqşünaslıq sektorunda həyata keçirilməyə başlanmışdı. Bu institutlarda xalq təsərrüfatı əhəmiyyətli bir sıra vacib problemlər, o cümlədən Azərbaycanın kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və otlaqların münbitliyinin yüksəldilməsi kimi məsələlərin araşdırılması intensivləşirdi. [58]

Mövcud olduğu on il ərzində (onun da yarısı 1941-1945-ci illər müharibəsinə təsadüf etmişdi) EAAzF Azərbaycan elminin inkişafına olduqca dəyərli töhfələr vermişdir. Onun elmi-tədqiqat institutlarında Azərbaycan iqtisadiyyatının və mədəniyyətinin inkişafı ilə əlaqədar elmin nəzəri və praktiki məsələləri intensiv şəkildə işlənilmiş, fundamental və tətbiqi tədqiqatlar aparılmışdır. EAAzF-nın mövqeyi təkcə onun fundamental tədqiqatların aparıcı mərkəzi olması ilə deyil, həmçinin onun fəaliyyət dairəsinə elmin ayrı-ayrı sahələrinin yox, faktiki olaraq elmlərin bütövlükdə kompleksinin daxil olması ilə müəyyənləşirdi. Burada yeni elmi istiqamətlər möhkəmlənmiş, yüksək ixtisaslı elmi kadrlar hazırlanmışdı. Elm mərkəzi üçün bu ziddiyyətli dövrdə SSRİ-nin akademik strukturları tərəfindən regionun stasionar tədqiqatlarının

---

[56] Дорфман, Я.Г., Михайлевский А.И. Физика и геофизика в Азербайджане за двадцать лет // Известия АзФАН СССР, – Баку: – 1940. №2, – с.142.

[57] Протокол совещания по вопросу организации Сектора энергетики при АзОЗФАНе в мае 1933 г. // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 3, siyahı №1, iş №165, vərəq – 13.

[58] В Президиуме АзФАН // Известия АзФАН СССР, – Баку: – 1940. №2, – с.160.

əsasları qoyulmuş, axtarışların coğrafiyası genişləndirilmiş, ölkənin cənub ərazilərinin öyrənilməsində və mənimsənilməsində EAAzF-nın nüfuzu möhkəmlənmişdi. EAAzF alimlərinin fəaliyyətinin ana xəttini, şübhəsiz ki, Sovet İttifaqının iqtisadi-təsərrüfat inkişafının mənafeləri ilə əlaqəli olan tədqiqatlar təşkil edirdi.

**"SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı sistemində ictimai və humanitar elmlərin inkişafı"** adlanan ikinci yarımfəsil tədqiq olunan dövrdə EAAzF-da ictimai və humanitar elmlərin inkişafına həsr olunmuşdur. Qeyd edilir ki, müharibədən əvvəlki illərdə ölkədə ideologiya və mədəniyyət sahəsində ciddi dəyişikliklər baş vermiş, cəmiyyətin inkişaf qanunlarının öyrənilməsində ictimai elmlərin, o cümlədən tarix elminin rolu artmışdı. ÜİK (b)P MK və SSRİ XKS-nin 1934 və 1936-cı illərdə məktəblərdə mülki tarixin tədrisi və tarix dərslikləri haqqında qərarları tarix elminin yüksəlişinə böyük təkan vermişdir. Bu hadisələrin zirvə nöqtəsi İ.V.Stalinin bilavasitə rəhbərliyi altında yaradılmış "ÜİK (b)P tarixinin qısa kursu" dərsliyinin 1938-ci ildə nəşr edilməsi oldu. Bu populyar dərslik 1930-cu illərin sonlarından 1950-ci illərin ortalarına kimi ÜİK (b)P tarixinin tədrisinin və öyrənilməsinin məzmununu müəyyənləşdirmiş, habelə SSRİ-də bütövlükdə tarix elminə və tarixin təbliğatına birbaşa təsir göstərmişdi. Heç bir özbaşına təfsirlərə yol verməyən bu konsepsiya bir çox insanın, o cümlədən alimlərin şüurunda illər boyu marksizm-leninizmlə assosiasiya olunurdu.[59]

SSRİ EA Rəyasət Heyətinin 1935-ci il 25 oktyabr tarixli qərarı ilə EA AzF-ın Tarix, arxeologiya və etnoqrafiya institutu təşkil olundu. [60] Bu institutun yaradılması nəinki Azərbaycan tarixinin öyrənilməsində, habelə yardımçı tarixi fənlərin – arxeologiyanın, numizmatikanın, etnoqrafiyanın, epiqrafikanın, Azərbaycanın memarlıq və incəsənət tarixinin öyrənilməsi sahəsində mühüm addım oldu.[61]

---

[59] Иванова, М.В. Введение в регионоведение. Из истории советского востоковедения / М.В.Иванова. – Томск: Изд-во ТПУ, – 2006, – с. 26-27.

[60] Выписка из протокола заседания Президиума АзФАН «Об организации институтов в системе АзФАН» №2 от 27 февраля 1936 г. // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 3, siyahı №1, iş №129, vərəq – 72.

[61] Климов, А.А., Джафарзаде И.М., Ямпольский З.И. Об итогах изучения

1941-ci ildə, müharibə başlananda respublika tarixçiləri tərəfindən əlyazması hüququnda "Azərbaycan tarixi (Qısa oçerk)" nəşr olundu. Bu, XIX əsrin əvvəllərinədək Azərbaycan xalqının tarixi üzrə ümumiləşdirici əsərlərin hazırlanması sahəsində ilk cəhdlərdən biri idi. Bu elmi-populyar xarakterli əsər Azərbaycan tarixi üzrə toplu əsərin hazırlanması üzrə mühüm mərhələni təşkil edirdi.[62]

1930-cu illərin ikinci yarısında böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq elmi-tədqiqatların və incəsənət əsərlərinin bütöv axınına səbəb oldu, həm siyasi, həm də mədəni baxımdan böyük əhəmiyyətə malik tərcümə, elmi-tədqiqat və nəşriyyat işlərinin həcmi xeyli artdı. Nizaminin yubiley təntənələrinə hazırlıq şairin müasiri olduğu və Ön Şərqin bir sıra ölkələrində, o cümlədən Cənubi Qafqazda feodal mədəniyyətinin yüksəlişi ilə əlamətdar olan ədəbi mühitin öyrənilməsinə müxtəlif istiqamətlərdə çalışan alimlərin marağının artmasına təkan verdi. Sovet alimlərinin böyük qrupunun əsərlərində həmin dövr Azərbaycanının rəngarəng və çoxcəhətli həyatının bütün tərəfləri əhatə olunmuşdu.[63]

Bütün müvəffəqiyyətlərlə yanaşı, 1935-1941-ci illər EA AzF-nın fəaliyyət tarixində ən faciəli dönəmlərdən biri oldu. Həmin dövrdə bütün ölkədə baş vermiş kütləvi repressiyalar respublikada elmin inkişafına, xüsusən ictimai elmlərə sarsıdıcı zərbə vurdu. Marksist qanunlarından uzaqlaşmaq cəhdi, xüsusən də ictimai elmlər sahəsində tədqiqatçıların Azərbaycan xalqının keçmişi və "sosialist" bu günü haqqında həqiqətdən bəhs etmək cəhdinin qarşısı nəinki amansızcasına alınır, həm də bu cür cəhd uzun müddət həbsə salınma, yaxud güllələnmə ilə nəticələnirdi.

Repressiyalar nəticəsində, ələlxüsus ictimai elmlər sahəsində elmi kadrların sayının azalması, EA AzF sistemində institutların

---

истории Азербайджана за 20 лет // Известия АзФАН СССР, – Баку: – 1940. – №2, – с. 67.

[62] Ализаде, А.А., Левиатов В.Н. Историческая наука в Азербайджанской ССР (К XXX-летию Великой октябрьской социалистической революции) // Известия АН Азербайджанской ССР, – Баку: – 1947. №10, – с. 134-135.

[63] Бретаницкий, Л.С. Зодчество Азербайджана в XII-XV вв. и его место в архитектуре Переднего Востока / Л.С.Бретаницкий. – Москва: Наука, –1966. – с. 47.

tez-tez yenidən qurulması, elmi ziyalıların bir çox görkəmli nümayəndələrinə qarşı qanunsuz repressiyalar respublikada elmin inkişafı yolunda ciddi çətinliklər yaradırdı.

**"Azərbaycanın elm xadimləri – "böyük terrorun" qurbanları"** adlı üçüncü yarımfəsildə Stalin idarəetmə sisteminin elmi ziyalılara divan tutması, ziyalıların kütləvi repressiyalar gedişində məhv edilməsi problemi təhlil olunur. Qeyd olunur ki, ölkənin bir çox regionunu əhatə etmiş və xeyli insanın həyatına son qoymuş 1932-1933-cü illərin aclığının ardınca çoxmillətli ölkənin milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq, heç bir guşəsindən yan keçməyən yeni faciə oynanıldı. Kütləvi repressiyalar dalğası bütün ölkəni bürüdü. Onların zirvə nöqtəsi ədəbiyyatda SSRİ-də "böyük terror" dövrü kimi səciyyələndirilən 1936-1938-ci illərin Stalin repressiyaları hesab olunur. Yarımfəsildə faktlarla əsaslandırılır ki, repressiyalarının əsas məqsədləri ölkədə ümumi şübhəlilik, çuğulçuluq və qorxu ab-havasının yaradılması, köhnə bolşeviklərin partiya-dövlət nomenklaturasından qəti şəkildə uzaqlaşdırılması və onların tamamilə itaətkar və şəxsən Stalinə sədaqətli gənclər arasından çıxmışlarla əvəzlənməsi üçün partiya və dövlət kadrlarının əsaslı surətdə təmizlənməsi idi. "Böyük terror" partiyanı, dövlət aparatını, Qızıl ordunu, ziyalılara və sadə sovet vətəndaşlarının böyük bir hissəsini əhatə etmiş, mahiyyətcə total, kütləvi xarakter almışdır.

Stalinin rəhbərliyi altında fəaliyyət göstərən Xalq daxili işlər komissarı N.Yejov 1936-1938-ci illərin kütləvi repressiyalarının başlıca təşkilatçılarından biri olmuşdur. 1930-cu illərin ortalarının kütləvi qətlləri ÜİK(b)P MK Siyasi bürosunun 1936-cı il 29 sentyabr tarixli "Əksinqilabi trotskist-zinovyevçi elementlərə münasibət haqqında" direktivinə və N.Yejov tərəfindən imzalanmış Xalq daxili işlər komissarlığının (XDİK) 1937-ci il 30 iyul tarixli "Keçmiş qolçomaqların, cinayətkarların və digər antisovet elementlərin repressiya olunması üzrə əməliyyatlar haqqında" 00447 saylı operativ əmrinə müvafiq olaraq həyata keçirilirdi. [64] Əmrdə SSRİ əhalisinin

---

[64] История сталинизма. «Через трупы врага на благо народа» «Кулацкая операция» в Украинской ССР 1937–1941 гг.: [в 2 томах]. – Москва: РОССПЭН, – т. 1. – 2010, – с. 39.

müxtəlif təbəqələrinə tamamilə məxfi genişmiqyaslı hücumun planı müəyyənləşdirilir, hücumun başlanması və bitməsi müddəti, repressiya olunanların bitməz-tükənməz kontingenti göstərilirdi. Bu əməliyyat XX yüzilliyin bürokratik təşkil olunmuş ən iri dövlət cinayətləri sırasına daxil olmuşdur.

Bu gün siyasi motivlərə görə repressiya olunmuşların, o cümlədən dəqiq sayını müəyyən etmək son dərəcə çətindir. Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin arxivinin rəsmi sənədinə əsasən, Azərbaycan SSR XDİK tərəfindən 1934-cü ilin yanvarın 1-dən 1939-cu ilin yanvarın 1-dək "əksinqilabi və antisovet fəaliyyəti göstərdiyinə görə" 27458 nəfər repressiya olunmuşdur. Onlardan 1515 nəfər sağ-trotskist, 3332 nəfər əksinqilabçı-millətçi, 4450 nəfər üsyançı ünsür, qolçomaq, 854 nəfər müsavatçı-ittihadçı, 139 nəfər daşnak, 492 nəfər əksinqilabçı ruhani, təriqətçi, 953 nəfər cinayətkar və onların əhatəsi, 935 nəfər diversant və zərərverici, 767 nəfər sosialist əmlakının dağıdan, 371 nəfər terrorçu idi.[65]

1930-cu illər Azərbaycan elminin tarixində ən faciəli dönəmlərdən biri olmuşdur. Kütləvi repressiyalar bütövlükdə mədəniyyətə, o cümlədən, elmə də ciddi ziyan vurmuşdu.

Dissertasiyada qeyd olunur ki, 1920-1930-cu illərin bütün dramatizmi, paradoksu ondan ibarət idi ki, əgər 1920-ci illərdə respublikada elmin təşkilati əsaslarının formalaşması və elmi ziyalıların sürətli artımı gedirdisə və o zaman öz fəaliyyətini addımbaaddım təkmilləşdirən Azərbaycan elmi biliyin əsas sahələrini və müvafiq elmi müəssisələri və təşkilatları birləşdirərək, nəzəri tədqiqatların aparıcı mərkəzinə çevrilirdisə, 1930-cu illərdə əks mənzərə – Azərbaycan elminin və ümumən ziyalıların ən yaxşı nümayəndələrinin, fəal surətdə öz xalqına xidmət göstərən şəxslərin dəhşətli şəkildə məhv edilməsi müşahidə olunur. Bir sözlə, "böyük terror" illərində SSRİ-nin cinayətkar stalinçi rəhbərliyinin günahı üzündən Azərbaycan intellektual və mədəni genofondunu itirmişdir.[66]

---

[65] Архивное-следственное дело №ПР // Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidmətinin Arxivi, vərəqlər – 2, 4.

[66] Репрессированная наука / Под ред. проф. М.Г.Ярошевского. – Ленинград: Наука, – 1991. – с. 11.

EA AzF-nın əsasən humanitar institutlarının və sektorlarının əməkdaşları da kütləvi repressiyaya məruz qalmışdılar. EA AzF-nın 12493 saylı "Alimlərin işi" adlı istintaq işində adı keçən bütün alimlər həbs olunmuş, hamısı haqqında güllələnmə hökmü çıxarılmışdı. EA AzF-nın və ali məktəblərin yüzlərlə alimi və rəhbər əməkdaşı əsassız təqiblərə, iftiralara, basqılara, mənəvi təzyiqlərə məruz qalmış, bir çoxu "millətçilikdə", "pantürkizmdə", "panislamizmdə" ittiham olunmuş, çoxusu respublikanı tərk etməyə məcbur olmuşdu. 1938-ci ilin baharına doğru "böyük terrorun" əsas vəzifələri yerinə yetirildi və kütləvi miqyasda dayandırıldı. Həbslər elə vüsət almışdı ki, ölkənin sənaye, elmi və hərbi potensialı üçün təhlükə doğurmağa başlamışdı. Hadisələrin gedişi göstərirdi ki, əgər repressiyaların templəri 1936-1938-ci illərdə olduğu kimi, daha bir neçə il davam etsə idi, ölkənin yarısı həbs düşərgələrinə düşəcəkdi. Repressiyaların davam etdirilməsi ölkəni sabitliyin tam pozulması ilə təhdid edirdi. Bu Stalinin və ətrafının planlarına daxil deyildi.

Partiyanın XX qurultayından sonra (1956-cı il, fevral) 1930-1940-cı illərin repressiyalarının və onların nəticələrinin obyektiv işıqlandırılmasında müəyyən dönüş nəzərə çarpırdı. Bununla yanaşı, hakimiyyət orqanları cinayətlərin miqyasını gizlətməkdə davam edirdilər. Sözügedən qurultaydan sonra EA AzF-nın, ali məktəblərin və elmi fəaliyyət aparan digər müəssislərin bir çox alimi bəraət almışdı.

**"Elmi kadrların hazırlığının dövlət sisteminin yaradılması və alimlərin sosial vəziyyəti (1920-1945-ci illər)"** adlı dördüncü fəsil üç yarımfəsildən ibarətdir. **"Elmi kadrların hazırlığı sahəsində partiya-dövlət siyasəti"** adlanan birinci yarımfəsildə elmi kadrların formalaşması, hazırlığı və attestasiya sistemi məsələləri işıqlandırılır və qeyd olunur ki, birinci mərhələdə milli elmi ziyalıların formalaşmasının müxtəlif sosial mənbələri mövcud idi. Sovet hakimiyyətinin ilk illərində hökumət qarşısında duran mühüm məsələlərdən biri "köhnə ziyalılar"ın mədəni quruculuğa hər vasitə ilə cəlb olunması idi. 1920-ci ilin mayın 22-də Azərbaycan İnqilab Komitəsi sosialist quruculuğunun maraqları naminə köhnə

mütəxəssislərdən istifadə edilməsi haqqında dekret dərc etdi.[67] Milli mədəniyyətin və elmin ən yaxşı təmsilçiləri elmi və tədris işinə cəlb olundular.

Yarımfəsildə Rusiyanın, Avropanın və Türkiyənin ali məktəblərində təhsil almış köhnə ziyalı nümayəndələrinin sayı izlənilmiş və məlum olmuşdur ki, bu say sovet dövründə şüurlu olaraq aşağı salınırdı. Məsələn, Azərbaycan SSR Xalq Maarif Komissarı (XMK) D.Bünyadzadə I Ümumazərbaycan Sovetlər qurultayında XMK-nın fəaliyyəti ilə bağlı hesabatla çıxış edərkən qeyd etmişdi: "*Bu yaxınlarda biz əhalinin qeydiyyatını apararkən, məlum olmuşdur ki, ali təhsilli müsəlmanların sayı cəmi 62 nəfərdir*." [68] Azərbaycan müəlliflərinin son tədqiqatları isə bu faktı təkzib edir. 20-ci illərin əvvəllərində Azərbaycanda 774 ali təhsilli adam var idi ki, onların hamısı Rusiyanın mərkəzi hissəsinin, Avropanın və Türkiyənin müxtəlif ali məktəblərində təhsil almışdılar. Ali təhsillilər arasında 17 azərbaycanlı qadın da var idi. [69]

Azərbaycanda elmin təşəkkülündə və kadrların hazırlığında azərbaycanlı mütəxəssislərlə yanaşı, Rusiya elminin bir çox təmsilçisi də mühüm rol oynamışdır. Milli ziyalı kadrların hazırlanması işində 1926-cı ildə ali məktəblərin yuxarı kurslarının ən qabiliyyətli tələbələri arasından yaradılmış praktikantlar və stajçılar institutu, eləcə də fəhlə və kəndlilər arasından irəli çəkilmiş tələbələr institutu böyük rol oynamışdır.

Azərbaycanda elmi kadrlar son dərəcə az idi. Yeni, milli elmi ziyalıların hazırlanması zəruri idi. Onun üçün 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (AzDETİ) nəzdində aspirantura – respublikada ilk növbədə yerli əhalidən elmi və elmi-pedaqoji

---

[67] Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.), – с. 13.

[68] Первый Всеазербайджанский съезд Советов рабочих, крестьянских, красноармейских и матросских депутатов, 6 мая 1921 г. Стенографический отчет. Типография Академического отдела Наркомпроса. – Баку: Изд-во АзЦИК, – 1922. – с. 116.

[69] Tahirzadə, Ə. Azərbaycan Cümhuriyyəti tələbələri (Tarixi arayış, bəlgələr, yaşamlar) / Ə.Tahirzadə, O.Tahirli. – Bakı: TEAS Press Nəşriyyat evi, – 2016. – s. 24-56.

kadrların formalaşmasının əsas qaynağı yaradıldı. Aspiranturada azərbaycanlıların sayı ildən ilə artırdı. Bu, gənc Azərbaycan elmi üçün böyük uğur idi.

Elmi kadrların attestasiyası sisteminin formalaşması üçün SSRİ XKS-nin 1934-cü il 13 yanvar,[70] 1937-ci il 20 mart[71] və 1938-ci il 26 aprel tarixli "Elmi dərəcələr və adlar haqqında" qərarları çox əhəmiyyətli aktlar oldu. Bu aktlara əsasən bütün idarələr və bütün respublikalar üçün elmi kadrların vahid hazırlanma və attestasiyası qaydası təsbit olundu.

Kadrların hazırlanması və onların ixtisasının artırılmasının bütün bu formaları tədqiq olunan illərdə elmi kadrların formalaşması probleminin operativ həllini təmin edirdi. Elmi müəssisələrin və elmi kadrların sayında, onların peşə, təşkilati, ixtisas, demoqrafik strukturlarında dəyişikliklər baş verirdi. İrəli çəkmə, təcrübəçilər, stajçılar institutları, aspirantura, daha sonra isə elmlər namizədi və elmlər doktoru hazırlığı milli elmi kadr sıralarının formalaşdırılmasının və doldurulmasının ən mühüm qaynaqları oldu.

Alimlərin kütləvi repressiyalarına baxmayaraq, ümumən Azərbaycan tarixində müharibədən əvvəlki illər milli ziyalıların, o cümlədən onun ən mühüm dəstələrindən birinin – milli elmi kadrların yaradılması ilə əlamətdar olmuşdu.

Dissertasiyanın dördüncü fəslinin **"Alimlərin əmək, məişət şəraitlərinin və hüquqi vəziyyətinin dəyişməsi"** adlanan ikinci yarımfəsildə elmi kadrların maddi və sosial təminatının, onların əmək və məişət şəraitinin yaxşılaşdırılması problemləri hər tərəfli işiqlandırılır.

Sovet hökuməti alimlərin həyat və iş şəraitinin yaxşılaşdırılmasına yönəlmiş mühüm dövlət tədbirləri həyata keçirirdi. O illərdə elmi ziyalıların ilk ictimai təşkilatlarının və həmkarlar birlikləri: Alimlərin məişətinin yaxşılaşdırılması üzrə mərkəzi

---

[70] Академия наук СССР. Всем директорам научно-исследовательских учреждений АН и председателям квалификационных комиссий (Москва, 14 декабря 1935г.) // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 3, siyahı №1, iş №129, vərəq – 49.

[71] Высшая школа: Основные постановления, приказы и инструкции / Сост. М.И.Мовшович. – Москва: Советская наука, – 1948. – с.325.

komissiya (AMYÜMK), Elmi işçilər bölməsi (EİB) və Alimlərə kömək komitəsi (AKK) alimlərin hüquqlarını müdafiə edir, elm siyasətində bir çox mühüm təşəbbüslərlə çıxış edirdilər.

Azərbaycanda elmin sürətli inkişafı məqsədilə 1920-ci ilin iyulun 7-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun və Xalq maarif komissarı D.Bünyadzadənin imzası ilə "Bakı dövlət universitetinin professorlarının və müəllimlərinin əvəzolunmaz ixtisaslı işçilər dərəcəsinə aid edilməsi haqqında" dekret dərc edildi.[72] Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 13 iyul tarixli dekreti[73] ilə və bu dekretə edilmiş əlavələrlə universitetin professorları və müəllimləri hərbi səfərbərlikdən azad edilirdilər.[74] Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 1 noyabr,[75] 13 noyabr,[76] 6 dekabr tarixli "Dövlət universitetinin akademik heyətinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında"[77] dekreti professor-müəllim heyətinin maaşlarının iki dəfə artırılmasını, mənzil şəraitinin yaxşılaşdırılmasını, akademik ərzaq payın daxil edilməsini nəzərdə tutur, ali məktəb professorlarının və müəllimlərinin tarif dərəcəsini müəyyənləşdirirdi. Elmi və elmi-pedaqoji kadrların sayca azlığı üzündən ali məktəblərin demək olar ki, bütün müəllimləri Xalq maarif komissarlığının icazəsi ilə eyni zamanda 1920-ci illərin əvvəllərində yaradılmış respublikanın ilk elmi müəssisələrində də əvəzçiliklə çalışırdılar. Ona görə də

---

[72]Декреты Азревкома (1920-1921). Сборник документов / Сост. А.А.Пашаев, М.И.Найдель. – Баку: Азернешр, – 1988. – с. 120.

[73]Декреты Азревкома (1920-1921). Сборник документов / Сост. А.А.Пашаев, М.И.Найдель. – Баку: Азернешр, – 1988. – с. 120.

[74] О дополнении к декрету «Об освобождении от мобилизации научных сотрудников Бакинского университета (1920, 7 октября)» / Собрание узаконений и распоряжений рабоче-крестьянского правительства Азербайджанской Социалистической Советской Республики, 1920, №6, ст. 527. – , с. 559.

[75] Декрет СНК Азербайджанской ССР «О мобилизации студентов Бакинского университета и о введении академического пайка» (1920, 1 ноября) / Собрание узаконений и распоряжений рабоче-крестьянского правительства Азербайджанской Социалистической Советской Республики, 1920, №7, ст.614. – , с. 665.

[76]Azərbaycan İnqilab Komitəsi və Xalq komissarları Soveti iclaslarının protokolları: 1920-1922-ci illər / red. A.A.Paşayev – Bakı: Çaşıoğlu, – 2009, – s.146.

[77] Декреты Азревкома (1920-1921), – с. 406-407.

hökumətin ali məktəb müəllimlərinə dair bütün sərəncamları bərabər şəkildə elmi müəssisələrin də işçilərinə şamil olunurdu.

AK(b)P-nin 1927-ci ilin noyabrın 17-də baş tutmuş VIII qurultayının qərarlarında vurğulanırdı ki, respublikada elmin inkişafı, elmi kadrların hazırlığı üçün şəraitin yaradılması məqsədi ilə alimlərin maddi vəziyyətini yaxşılaşdırmaq lazımdır. 1926-1928-ci illərdə respublika hökuməti tərəfindən elmi işçilərin hüquqlarını tənzimləyən bir sıra qərarlar da dərc olundu. Onların arasında Azərbaycan SSR MİK və XKS-nin 1926-cı il 7 avqust tarixli "Ali təhsil müəssisələrinin akademik personalından olan şəxslərin pensiya təminatı haqqında", 1928-ci il 3 mart tarixli "Azərbaycan SSR ali təhsil müəssisələrinin ixtisaslı elmi işçiləri haqqında", "Professorlar və dosentlər haqqında", "Kiçik akademik personal haqqında", "Elmi işçilər haqqında əsasnamə", 1928-ci il 19 mart tarixli "Akademik personalın qulluq müddəti haqqında" qərarları xüsusi yer tuturdu. [78]

Ümumrusiya Elmi işçilər seksiyası ilə eyni vaxtda bütün müttəfiq və muxtar respublikalarda öz seksiyaları təşkil olundu. Birincilər sırasında 1922-ci ilin martında Bakının ali məktəblərinin elmi işçiləri və müəllimləri Elmi işçilər seksiyasını yaratdılar və onun sədri prof. A.V.Baqri oldu. [79] Azərbaycan SSR XKS-nin 1932-ci il 17 may tarixli qərarına əsasən Azərbaycan alimlərə kömək komissiyası (AAKK) təşkil olundu. [80] Respublika XKS-nin 1933-cü il 17 may tarixli "ASSR XKS yanında alimlərə kömək komitəsinə vəsaitin buraxılması haqqında" qərarı ilə Xalq Komissarları Sovetinin vəsaitlərindən AAKK-yə 6 min qızıl rubl ayrıldı. [81]

---

[78] Наука и техника Советского Азербайджана. Летопись важнейших событий (1920-1987 гг.), – с. 41.

[79] Иванова, Л.В. Формирование советской научной интеллигенции (1917-1927 гг.) / Л.В.Иванова. – Москва: Наука, – 1980. – с. 221.

[80] Постановление Совета Народных Комиссаров Азербайджанской ССР «О создании Комитета содействия ученым» № 721 от 17 мая 1932 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond № 411, siyahı №28, iş №347, vərəq – 40; О создании Комитета содействия ученым (1932, 17 мая) / Собрание узаконений и распоряжений рабоче-крестьянского правительства Азербайджанской Социалистической Советской Республики, 1932, №15, ст. 298, – с. 558-559.

[81] Постановление Совета Народных Комиссаров Азербайджанской ССР «Об отпуске средств Комитету содействия ученым при СНК АССР» №555 от 17 мая

Elmi işçilərin həyat və əmək şəraitinin yaxşılaşdırılması üçün zəruri təsirli tədbirlər həyata keçirilirdi. Bunun nəticəsində Azərbaycanda elmi işçilərin maddi vəziyyəti digər respublikalarla müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşdı. Mənzil şəraiti, tibbi xidmət, təqaüdlər, uşaqların ali məktəblərə qəbul edilməsi şərtləri, həqiqi hərbi xidmətə çağırışdan möhlət və bir sıra başqa amillər elmi işçilər üçün həyati əhəmiyyət daşıyırdı və bütün bu məsələlərdə onlar respublika hökumətinin daim dəstəyi ilə qarşılaşırdılar.

Üçüncü yarımfəsil **"Azərbaycan alimlərinin beynəlxalq elmi əlaqələrinin inkişafı"** adlanır. 1920-ci illərdə Azərbaycan alimlərinin beynəlxalq elmi əlaqələri genişlənməkdə idi. Bu əlaqələr mürəkkəb və qeyri-müəyyən inkişaf edirdi. Tədqiq olunan dövrdə beynəlxalq əməkdaşlığın müxtəlif formalarının həyata keçirilməsi genişlənirdi. Beynəlxalq mədəniyyət əlaqələri funksiyasını yerinə yetirən aparıcı təşkilat Ümumittifaq Xariclə Mədəni Əlaqələr Cəmiyyəti (ÜXMƏ) idi. Cəmiyyətin Azərbaycan filialı da təşkil olunmuşdu. 1930-cu illərin sonunda beynəlxalq vəziyyətin kəskinləşməsi, habelə sovet elminin təcridinə yönəlmiş dövlətin siyasi kursu ilə əlaqədar olaraq elmi əlaqələr kəskin şəkildə azalmış, hətta tamamən dayandırılmışdı. "Dəmir pərdə" salınmışdı ki, o, SSRİ elmi ictimaiyyətinin dünya elmi ilə qarşılıqlı təsir prosesini dayandırmışdı.

Beləliklə, 1920-1930-cu illərdə Azərbaycan alimləri elmi əməkdaşlığın müxtəlif formalarından yararlanaraq, ilk beynəlxalq əlaqələr qurmağa, başqa ölkələrin alimləri ilə məlumat mübadiləsinə başlamağa, xarici elmi-texniki ictimaiyyəti özünün bəzi nailiyyətləri ilə tanış etməyə, əcnəbi həmkarlarının işi haqqında müəyyən məlumatlar əldə etməyə müvəffəq oldu.

**"SSRİ Elmlər Akademiyasının Azərbaycan filiallı 1941-1945-ci illər müharibəsində. Azərbaycan SSR Elmlər Akademiyasının yaranması"** adlanan beşinci fəsildə 1941-1945-ci illər müharibəsi dövründə respublika alimlərinin ölkənin müdafiə qüdrətinin təmin olunmasında qəhrəman əməyindən bəhs edilir. **"Müharibə şəraitində elmi müəssisələrin fəaliyyət istiqamətinin**

---

1933 г. // Azərbaycan Respublikasının Dövlət Arxivi, Fond № 411, siyahı №28, iş №356, vərəq – 153.

**yenidən qurulması"** adlı birinci yarımfəsildə elmi – tədqiqatların, elmi potensialın güclü mərkəzləşdirilmiş aparatının yaradılmasına dair ölkə hökumətinin fəaliyyəti ətraflı təhlil edilmişdir. Göstərilir ki, belə bir aparat olmadan ölkə elminin bütün nailiyyətlərindən düşməni darmadağın etmək, uzun sürən müharibəyə tab gətirmək, hərbi istehsalın artımını sürətləndirmək mümkün olmazdı.

Qeyd olunur ki, Azərbaycan ərazisi döyüş əməliyyatları meydanına çevrilməsə də, müharibə respublika alimləri qarşısında məsul vəzifələr qoydu və onların həll edilməsində EA AzF-a, sahə elmi-tədqiqat müəssislərinə və ali məktəblər böyük rol oynadı.

Müharibə alimlərin elmi tədqiqatlarının istiqamətlərinə mühüm dəyişikliklər gətirdi. Müharibənin başlanması ilə döyüşən ordunu silah və döyüş sursatları, hərbi sənayeni xammal, avadanlıq, mükəmməl istehsal vasitələri ilə təminatla əlaqədar tədqiqatlar önə çəkildi. Ölkənin xammal ehtiyatlarının səfərbərliyi, aztapılan materialların yerli xammalla əvəz olunması zərurətə çevrildi.

Bütünlükdə sovet xalqı kimi, Azərbaycan alimləri də müdafiə fondunun yaradılması, cəbhəyə yardım göstərilməsi üçün vəsait yığılması uğrunda vətəndaşların kütləvi vətənpərvərlik hərəkatında iştirak etmişdilər. Yalnız bir ay müddətində EA AzF xətti ilə müdafiə fonduna 29 qr. qızıl, 2 kq. 50, 5 qr. gümüş, 6.158 rubl pul, 90.756 rubl dövlət borcu üzrə istiqraz vərəqələri, 185 kq. 700 qr. əlvan metal toplanılmışdı. [82] Ümumilikdə müharibə dövründə EA AzF alimləri müdafiə fonduna, habelə tank və təyyarə dəstəsinin, sanitar təyyarəsinin və s. istehsalına 86.914 rubl vermişdilər. Döyüşən ordunun döyüşçüləri üçün 1.079 dəst isti əşya toplanılmışdı. Ordu əsgərlərinə, xəstəxanalarda müalicə alan yaralılara və xəstələrə əşyalar və ərzaqlardan ibarət 502 bağlama yola salınmışdı. [83]

---

[82] Научные работники АзФАН в дни Отечественной войны (август 1942 г.) // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 5, siyahı №1, iş №183, vərəqlər – 6-7.

[83] Отчет о работе Азербайджанского филиала Академии наук СССР за 1941 г. // AMEA Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi, Fond № 5, siyahı №1, iş №155, vərəq – 12; Джангиров З. Коммунисты – ученые АзФАН в дни Отечественной войны // Известия АзФАН СССР, – 1942. № 11, – с.77.

Filialın elmi əməkdaşları arasında "Azərbaycan alimləri" tank dəstəsinin yaradılması üçün vəsait toplanılmasına başlanılmışdı.[84] "Azərbaycan həkimi" təyyarə eskadrilyasının yaradılması üçün tibbi ictimaiyyət, o cümlədən Bakının alim təbibləri 1943-cü ilin yanvarın ayınadək 350 min rubldan artıq vəsait toplamışdılar.[85]

**"Azərbaycanın məhsuldar qüvvələrinin və təbii ehtiyatlarının cəbhənin ehtiyacları üçün səfərbər olunmasında elmin rolu"** adlanan ikinci yarımfəsildə Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin alimlərinin faşist Almaniyası üzərində Böyük Qələbəyə verdiyi töhfələr təhlil edilir. Ölkədə neft və qaz hasilatının artırılmasında Azərbaycan olduqca vacib rol oynayırdı. Müharibə dövründə neft ilk dəfə olaraq nəinki iqtisadi və strateji material kimi şöhrət qazandı, o həmçinin siyasi məna kəsb etdi. II Dünya müharibəsi illərində dünya siyasətində neftin artmaqda olan əhəmiyyəti Bakını beynəlxalq müzakirələrin və müttəfiq dövlətlərin diplomatik danışıqlarının mərkəzi mövzularından birinə çevirmişdi. Müttəfiq dövlətlərin məxfi yazışmalarında, hərbi ekspertlərin sənədlərində müharibənin gedişində köklü dönüşdə və düşmən üzərində qələbənin təmin olunmasında Azərbaycan neftinin rolu dəfələrlə və yüksək dəyərləndirilmişdir.[86]

1941-1945-ci illərdə Azərbaycan elminin keçdiyi yol göstərir ki, müharibədən əvvəlki dövrdə formalaşmış Vətən elmi məktəbləri sayəsində fundamental elmlərin yüksək inkişaf səviyyəsi və elmi-texniki işlərin sistemli təşkili silsilə döyüş texnikasını, silahı, döyüş sursatlarını daim təkmilləşdirməyə və modernləşdirməyə, daha yüksək texniki xüsusiyyətləri və imkanları ilə prinsipial olaraq yeni silahlanma nümunələrini yaratmağa imkan verdi. EA AzF-nın alimləri orduya yardım göstərməklə yanaşı, strateji ehtiyatların axtarışı ilə tədqiqatlar aparırdılar. Azərbaycan kimyaçıları son dərəcə qısa müddətdə benzin

---

[84] В нашем филиале // Известия АзФАН СССР, – 1943. № 1, – с. 73.

[85] Абасов, М.Г. Вклад тружеников Баку в достижение Победы над гитлеровской Германией / М.Г.Абасов. – Баку: Военное издательство, – 2000. – с. 56.

[86] Гасанлы, Дж.П. Советская политика по расширению южных границ: Сталин и азербайджанская карта в борьбе за нефть (1939-1945) / Дж.П. Гасанлы. – Москва: РОССПЭН, – 2017. – с. 350-351.

istehsalının artırılması və onun keyfiyyət imkanlarının yaxşılaşdırılması yollarını tapdılar. 1941-1945-ci illər müharibəsi dövründə faşist ordusuna sovet aviasiyasının qalibiyyətli zərbələrinin təməli Bakıda, görkəmli Azərbaycan kimyaçı alimi Yusif Məmmədəliyevin laboratoriyalarında qoyulmuşdu. Onun rəhbərliyi altında ilk dəfə olaraq partlayıcı maddələrin istehsalı üçün xammal olan toluolun əldə olunması prosesi həyata keçirilmiş və istehsala tətbiq olunmuş, tanklarla mübarizə üçün yandırıcı qarışıq (Qərbdə "Molotov kokteyli" adını almış) işlənib hazırlanmış, aviasiya üçün misilsiz əhəmiyyətə malik olan və düşmən üzərində tezliklə qələbəyə töhfəsini verən yüksək oktanlı aviasiya yanacağının alınmasının sənaye üsulu işlənib hazırlanmış və tətbiq edilmişdir. Bu üsul sonralar dünya elmi ictimaiyyətinin, xüsusən də amerikalı alimlərin marağına səbəb olmuşdur.[87]

Ölkənin müdafiə sənayesinin inkişafına və möhkəmləndirilməsinə kimyaçı alimlərin digər böyük töhfəsi yüksək keyfiyyətli aviasiya benzininin istehsalı prosesinin işlənib hazırlanması oldu. Alimlər, fəhlələr və mühəndis-texniki işçilərlə birlikdə cəbhənin texnika və döyüş sursatları ilə fasiləsiz təchizini təmin edir, istehsalata qabaqcıl texnoloji prosesləri tətbiq edir, yeni xammal, yanacaq mənbələri, sənaye üçün əvəzedicilər axtarırdılar.

1941-ci ildə respublikada alimlərin və neftçilərin fədakar və gərgin əməyi sayəsində Azərbaycan tarixində ilk dəfə – 23,5 milyon ton neft hasil edildi ki, bu da Sovet İttifaqında həmin il çıxarılan ümumi neftin 71,4 %-ini təşkil edirdi.[88] Ümumilikdə 1941-1945-ci illərdə SSRİ-də 110 milyon ton neft hasil edilmişdi ki, onun da 75,2 milyon tonu Azərbaycanda çıxarılmışdı. O dövrdə cəbhəyə göndərilmiş bütün yanacağın və sürtgü yağlarının 85-90%-i Azərbaycanın neft sənayesinin payına düşürdü.[89]

---

[87] Султанов, Ч.А. История не любит сослагательного наклонения, и все же… / Ч.Султанов. – Баку: Чашыоглу, – 2011. – с. 339.

[88] Алиев, Г. На стыке тысячелетий. Обращение Президента Гейдара Алиева к азербайджанскому народу в связи с наступлением нового, 2001 года, нового века и нового тысячелетия / Г.Алиев. – Баку: Qızıl Şərq, – 2001. – с. 131.

[89] Абасов М. Вклад тружеников Баку в достижение Победы над гитлеровской Германией, – с. 18, 23.

Əminliklə söyləmək mümkündür ki, Bakı nefti II Dünya müharibəsində faşizm üzərində qələbənin qazanılmasında ən həlledici amillərdən biri olmuşdur. Müharibədən əvvəlki illərin məşəqqətlərinə, repressiyalara baxmayaraq, müharibə illərində sovet hakimiyyəti, kommunist partiyası və ölkə rəhbərliyi Vətən obrazının canlı mücəssəməsini təmsil edirdi. Bu, ziyalıların hakimiyyətə etimadının zirvə nöqtəsi idi. Sonralar ziyalıların siyasi loyallığı həmişəlik olaraq itirilmişdi. SSRİ-də elm başlıca dövlət prioritetlərindən biri olmaqla, dövlət təhlükəsizliyinin son dərəcə mühüm elementinə çevrilmiş oldu və ona misilsiz siyasi əhəmiyyət verildi. Bütün bunlarla yanaşı hakimiyyətin başladığı kütləvi repressiyalarda xeyli alim həlak olmuşdu, ideolojiləşdirilmiş elm üzərində total nəzarət isə onun bəzi sahələrində yalançı elmi mülahizələrin hökmranlığına gətirib çıxarmışdı. Müharibə neqativ meyllərə ara verdi, sovet elmini özünütəcrid vəziyyətindən çıxardı, sovet və əcnəbi alimlərin elmi əlaqələrini bərpa etdi və milli təhlükəsizliyin ən mühüm amili kimi Böyük elmin formalaşmasını başa çatdırdı. Elmi siyasətin müəyyənləşdirilməsi zamanı alimlər hakimiyyətin təkcə məsləhətçiləri deyil, həm də tərəfdaşları oldular. Nəticədə alimin sosial statusu kəskin surətdə artdı. 1941-1945-ci illər müharibəsində qələbə xalqda yaradıcı qüvvələrin yüksəlməsinə imkan verdi. Elmi fikir son dərəcə intensiv surətdə inkişaf etməyə başladı.

Dissertasiyanın beşinci fəslinin **“Azərbaycan SSR Elmlər Akademiyasının yaranması”** adlanan üçüncü yarımfəslində qeyd edilir ki, müharibənin qalibiyyətlə başa çatmasına az qalmış, Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Öz xarakterinə və gördüyü işin həcminə, qarşısında duran vəzifələrə görə EA AzF-nın həmin vaxt üçün artıq Elmlər Akademiyası tipində elmi müəssisəyə çevrildiyini nəzərə alaraq, SSRİ Elmlər Akademiyasının[90] və Azərbaycan SSR XKS-nin təqdimatı əsasında SSRİ hökuməti 23 yanvar 1945-ci ildə Bakı şəhərində EA AzF-nın yenidən

[90] Совет Народных Комиссаров СССР. Об организации Академии наук Азербайджанской ССР. Постановление №131 от 23 января 1945 г. Москва, Кремль // Rusiya Federasiyasının Dövlət Arxivi, Fond №5446, siyahı № 1, iş № 241, vərəq – 157.

qurulması və Azərbaycan SSR Elmlər Akademiyasının təşkili haqqında qərar qəbul etdi. Hazırlıq işləri başa çatandan sonra Azərbaycan SSR Xalq Komissarları Sovetinin “Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması haqqında” 27 mart 1945-ci il tarixli, 316 saylı qərarı ilə Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsi respublika səviyyəsində rəsmiləşdirildi və onun Nizamnaməsi təsdiq olundu.[91] Elmi-tədqiqat müəssisələrinin, ali məktəblərin və ictimai təşkilatların irəli sürdükləri namizədlər arasından Azərbaycan SSR Elmlər Akademiyasının 12 alim milliyyətcə azərbaycanlı olmaqla 15 həqiqi üzvdən ibarət akademiyanın həqiqi üzvlərinin ilk tərkibi təsdiq olundu.[92] Respublika hökuməti Azərbaycan SSR Elmlər Akademiyasının Nizamnaməsini təsdiqləməklə respublikanın daha çox görkəmli alimləri birləşdirən ali elmi müəssisəsi kimi Azərbaycan SSR Elmlər Akademiyasının aparıcı mövqeyini təsbit etdi.

Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlərinin ilk ümumi yığıncağında Akademiyanın prezidenti və vitse-prezidenti, akademik-katibi, rəyasət heyəti və bölmələrinin sədrləri seçildi. Akademik M.Ə.Mirqasımov yekdilliklə Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti seçildi.[93] Martın 31-də Azərbaycan SSR Elmlər Akademiyasının əsas binasında Akademiyanın həqiqi üzvlərinin ilk ümumi iclası кeçirildi.

Beləliklə, Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması respublikanın mədəni həyatında olduqca önəmli

---

[91] Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanları və Azərbaycan SSR Hökuməti qərarlarının xronoloji külliyyatı: Azərb. SSR Nazirlər Soveti yanında Hüquq Komissiyası, 1936-1945 / red.M.A. Həsənov. – Bakı: [s. n.], c. 2. – 1961. – s. 342-343.

[92] Постановление Совета Народных Комиссаров Азербайджанской ССР «Об организации Академии наук Азербайджанской ССР» от 27 марта 1945 г. // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond № 1, siyahı №206, iş №6, vərəqlər – 355-358.

[93] Академия наук Азербайджанской ССР // Бакинский рабочий, 1945. 1 апреля, – с.1.

hadisə idi. O, Azərbaycanda elmin davamlı yüksəlişindən və elmi kadrların yetkinliyindən xəbər verirdi. Azərbaycan SSR EA respublikanın yeganə elmi mərkəzi idi ki, burada bütün elmi-tədqiqat fəaliyyətinin ümumi rəhbərliyi cəmləşmişdi. Akademiyanın işinin istiqaməti və xarakteri mərhələdən mərhələyə dəyişir, tədqiqatçı vəzifələrinin dairəsi genişlənir, onun elmi potensialı artırdı.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqata yekun vurulur, ümumiləşdirilir və əsas müddəalar təqdim edilir.

## Dissertasiyanın əsas müddəaları müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Путь от неграмотности к вершинам науки // "Elmi - mədəni tərəqqi və qadın" mövzusuna həsr olunmuş elmi konfransın materialları, – Bakı, – 2003, – s. 7-22.
2. Из истории научной мысли Азербайджана (до начала XX столетия) // – Bakı: Elmi araşdırmalar,– 2004. № 1- 2, – s. 222-239.
3. Основные этапы становления азербайджанской науки и формирование национальной научной интеллигенции республики (первая половина XX столетия) // – Bakı: Elmi araşdırmalar, – 2004. №3-4, – s. 246-257.
4. Репрессированная наука Азербайджана (30-е годы XX столетия) // – Bakı: Azərbaycan Tarixi Muzeyi, – 2005, – s. 326-342.
5. Из истории Национальной Академии наук Азербайджана. / – Баку: Тахсил, – 2005. – 566 с.
6. Роль «Общества обследования и изучения Азербайджана» в становлении и развитии исторической науки в Республике // – Bakı: Elmi axtarışlar (Folklorşunaslıq: filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), – 2006. XXVII cild, – s. 270-279.
7. Археологическая наука Азербайджана (20-е годы XX столетия) // – Баку: Азербайджан и азербайджанцы, –

2006. № 5-12, – с. 181-193.
8. Первый Всесоюзный Тюркологический съезд: История и современность. (К 80-летнему юбилею I Тюркологического съезда) // – Bakı: Tarix və onun problemləri, – 2006. №4, – s. 124-142.
9. Cahangir Zeynaloglu (1892-1944): Fate and Scientific Heritage the Sholar // – Bakı: Azərbaycan və azərbaycanlılar, – 2007. №5-12, – s. 179-186.
10. Azerbaijani Ethnography Shaping: Key Tendencies and Conception // – Bakı: Азербайджан и азербайджанцы, – 2007. № 1-4, – с. 75-86.
11. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı müharibə illərində (1941-1945) // – Bakı: Dirçəliş – XXI əsr, – 2007. №112-113, – s. 297-314.
12. Джахангир Зейналоглу: Судьба и научное наследие ученого // – Bakı: Azərbaycan Tarixi Muzeyi, – 2007. – s. 198-210.
13. Əhməd Əfəndi Çələbizadə və Quba tarix-diyarşünaslıq muzeyi ilə bağlı ömür (anadan olmasının 115 illiyinə ithaf olunur) // – Bakı: Azərbaycan MEA Tarix İnstitutunun Elmi Əsərləri, – 2007. 22-ci cild, – s. 176-183.
14. Научная интеллигенция Азербайджана в годы войны (1941-1945 гг.) // Azərbaycan 1941-1945-ci illər müharibəsində. Məqalələr toplusu, – Bakı: Elm, – 2008. – s. 24-58.
15. Фундаментальные и прикладные исследования в области естественных и технических наук, проводимые в институтах Азербайджанского филиала Академии наук СССР (1935-1941 гг.) // – Bakı: Азербайджан и азербайджанцы, – 2008. №5-8, – с. 164-179.
16. Əhməd Əfəndi Çələbizadə. Quba rayonunun qədim adət və ənənələri haqqında / T.Kərimova, B.Kərimov; / – Bakı: Ziya-Nurlan, – 2008. – 604 s.
17. Əhməd Əfəndi Çələbizadə. Quba-dövrün adət və qaydaları (XIX-XX əsrin 20-30-cu illəri) / T.Kərimova, B.Kərimov; / – Bakı: Ziya-Nurlan, – 2009. – 364 s.

18. Азербайджанское Отделение Закавказского филиала АН СССР как научный центр: у истоков отечественной науки // – Баку: Азербайджан и азербайджанцы, – 2009. №1-2, – с. 191-201.
19. Так создавалась Национальная Академия наук Азербайджана // – Bakı: Azərbaycan MEA Tarix İnstitutunun Elmi Əsərləri, – 2009. cild 27, – s. 148-161.
20. Из истории востоковедения: Пантелеймон Крестович Жузе (1871-1942) // – Bakı: Tarix və onun problemləri. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış, – 2009. №3, – s. 82-91.
21. Основные направления научных исследований в области общественных и гуманитарных наук Азербайджанского филиала Академии наук СССР (1935-1941) // – Баку: Азербайджан и азербайджанцы, – 2010. №1-2, – с. 242-257.
22. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun beynəlxalq əlaqələri (1920-2003) // – Bakı: Azərbaycan MEA Tarix İnstitutunun Elmi Əsərləri, – 2010. cild 34-35, – s. 167-185.
23. Böyük qələbəyə Azərbaycan alimlərinin töhfəsi // Vətənə və elmə xidmət etdilər. – Bakı: Nafta Press, – 2012. – s. 6-64.
24. Бакинский период в жизни и творчестве Пантелеймона Крестовича Жузе // – Москва: Современная научная мысль России, – 2014. – №1, – с. 36-49.
25. Из истории научных связей Азербайджанской ССР и Северного Кавказа (20-30-е годы XX в.) // Сборник трудов Международной конференции, посвященной памяти В.П.Дзагуровой, – Махачкала: – 25 апреля, 2014, – с. 29-33.
26. Вклад польских ученых и специалистов в развитие нефтяной промышленности Азербайджана (конец XIX – начало XX века) // "Əsrin müqaviləsi"nin imzalanmasının 20-ci ildönümünə həsr olunmuş elmi konfransın materialları, – Gəncə: – 22-23 sentyabr, – 2014, – s. 128-135.
27. Организация первых научных учреждений и формирование научной интеллигенции Азербайджана

(20-е годы XX столетия) // –Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2014. – s. 196-208.
28. Udzıal Polskıch naukowcow w rozwoju naukı w Azerbejdzanie na przelomıe XIX/XX wıeku // Materıaly III konferencjı naukoewj, poswieconej 540-leciu nawiazania oraz 20-leciu odnowienia stosunkow dyplomatycznych miedzy Azerbejdzanem a Polska, – Warszawa: – 12 grudnia, 2014, – s. 195-198.
29. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsinin ilk sədri Vahab Həsənzadənin həyatı və elmi təşkilatçılıq fəaliyyəti // Naxçıvan qədimdən günümüzə qədər. Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş məqalələr toplusu, – Bakı: – 2014, – s. 223-229.
30. Научное наследие репрессированных ученых Азербайджана /Репрессированные ученые Азербайджана. Биобиблиографический указатель, – Баку: – 2014, – с. 17-37.
31. Жизнь и творческий путь Алескера Гаджи Кязим оглы Алекперова: В серии «20-30-е годы XX века в судьбах азербайджанской интеллигенции» // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri, İctimai elmlər seriyası, 2015. № 1, – s. 153-172.
32. Azərbaycan Milli Elmlər Akademiyasının yaranması. / – Bakı: Elm və təhsil, – 2015, – 488 s.
33. Алескер Гаджи Кязимоглы Алекперов: Жизнь, творчество, судьба ученого (Документы, материалы, письма, хроника, статьи, библиография) / Т.Керимова-Коджаева, И.Садыгова, И.Алиев; / – Баку: Изд-во Университета Хазар, – 2015. – 576 с.
34. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığının SSRİ EA Azərbaycan Filialının əməkdaşları tərəfindən tədqiq edilməsi tarixindən (XX əsrin birinci yarısı) // “Qafqaz tarixinin aktual məsələləri” Beynəlxalq konfransın materialları, – Gəncə: – 15-16 oktyabr, – 2015, – s. 30-35.
35. История азербайджанского народа в работах Рашид

бека Измайлова // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci illiyinə həsr olunmuş "İnvestisiya qoyuluşlarının siyasi aspektləri və iqtisadi səmərəliliyi" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 5-6 may, – 2015, – s. 282-287.

36. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun yaranması tarixindən (80 illik yubileyinə həsr olunur) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 3, – s. 47-63.
37. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu XX əsrin 30-cu illərin sonu - 40-cı illərin əvvəllərində // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri, İctimai elmlər seriyası, – 2015. № 4, – s. 17-30.
38. Вклад ученых Азербайджана в Великую Победу // Служили Родине и науке… / под ред. академика Ак. А.Ализаде. – Баку: Nafta Press, – 2015, – s. 6-64.
39. Azərbaycan arxeologiya və etnoqrafiya elmlərin inkişafında Heydər Əliyev mərhələsi // – Bakı: Tarix və onun problemləri, – 2015. №1, – s. 314-321.
40. Azerbaycan Milli İlimler Akademisi'nin Teşkili (XX Yüzyılın Birinci Yarısı) // – Türkiye: Yeni Türkiye. Kafkaslar özel sayısı VI. Temmuz-Aralık. – 2015, yıl 21, sayı 76, – s. 165-174.
41. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu 1941-1945-ci illər müharibəsi dövründə // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri, İctimai elmlər seriyası, – 2016. № 1, – s. 12-22.
42. Azerbayijan scientists in the qrip of repression (the 1930 s) // - London: Cambridge Central Acia Reviews, – 2016, volume 2, – p. 34-41.
43. Съезд, объединивший тюркский мир (посвящается 90-летнему юбилею Первого Всесоюзного Тюркологического съезда) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, –

2016. №3, – s. 20-34.
44. A.A.Bakıxanov adına Tarix İnstitutu sovet totalitar rejiminin gücləndiyi dövrdə // – Bakı: AMEA Xəbərləri, İctimai elmlər seriyası, – 2017. №2, – s. 98-110.
45. Большой террор и судьбы азербайджанской научной интеллигенции (30-е годы XX столетия) // “XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları” IV Beynəlxalq elmi konfransın materialları, – Lənkaran: – 22-27 aprel, – 2017. № 64, 65, 66, – s. 205-213.
46. Советизация научно - исследовательской системы в Азербайджане в период становления тоталитарного режима // “Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar” mövzusunda I Beynəlxalq elmi konfransın materialları, – Bakı: 29-30 oktyabr, – 2018. – s. 120-123.
47. Первый азербайджанский исследователь истории государства Ширваншахов // “Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət” Beynəlxalq elmi konfransın materialları, – Bakı: 23-24 oktyabr, – 2018. – s. 1075-1085.
48. Драматические страницы отечественной истории: пути и судьбы первых студентов Азербайджанской Демократической Республики, посланных на учебу в Европу // – Bakı: AMEA Xəbərləri. İctimai elmlər seriyası, – 2018. №3, – s. 59-69.
49. 100 студентов Азербайджанской Демократической Республики: История и современность // “Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi” mövzusuna həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, – Gəncə, 26-30 iyul, 2018-ci il // – Bakı: AMEA Tarix İnstitutunun elmi əsərləri, – 2018. №74, 75, 76, – s. 300-305.
50. Национальная Академия наук Азербайджана: история создания (1920-1945 гг.) // – Москва: Вопросы истории, – 2019. №3, – с. 72-86.
51. Из истории научного изучения Каспийского моря // – Нальчик: Научные известия, — 2019. №15, – с. 20-29.

52. Деятельность Общества обследования и изучения Азербайджана (1923-1929 гг.) // – Bakı: Azərbaycan Xalçaları, – 2020. cild 10, №33, – s. 55-77.
53. Реорганизация системы научных учреждений – новый этап в развитии науки в Азербайджанской ССР (1929-1932 гг.) // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2020, – с. 159-170.
54. У истоков азербайджанской археологии: Джемиль Александрович (Насыфи): Жизнь, похожая на легенду // История и культура. Факты и ценности. Сборник статей, посвященный юбилею академика Наили Велиханлы / Ответ. ред. Ф.Р.Джаббаров. – Баку: Нурлар, – 2020, – с. 267-284.
55. Zelik İosifoviç Yampolskinin (Lənkəranlının) əsərlərində Azərbaycanın qədim tarixi məsələləri // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2021, – s. 285-295.
56. Деятельность Азербайджанского Научно - Исследовательского Института (АзГНИИ) в развертывании научных исследований в области общественных и гуманитарных наук (1929-1932 гг.) // Материалы Второй международной научной конференции «История науки и науковедение: междисциплинарные исследования», – Баку: 15 октября, – 2021. – с. 175-191.
57. Cahangir Zeynaloğlu. “Şirvanşahlar yurdu.Vaxtilə Albaniya, Arran vı Şirvan deyə anılan “Qafqaz Azərbaycanı”nın tarixidir” (tərtib edən və giriş mətnin müəllifi T.Kərimova-Kocayeva), / – Bakı: Elm və təhsil, – 2021, – 283 s.
58. Rəxşəndə Babayeva. Quba şəhərinin toy adətləri (tərtib edən və giriş mətnin müəllifi T.Kərimova-Kocayeva), / – Bakı: Elm və təhsil, – 2022, – 151 s.
59. A.A.Bakıxanov adına Tarix İnstitutunun tarixi. I kitab. (1923-1935-ci illər). / – Bakı: Elm və təhsil, – 2022, – 372 s.
60. Азербайджанская этнография в первые годы XX столетия // – Bakı: Milli Azərbaycan tarixi Muzeyi,– 2022.

– s. 76-92.
61. Джемиль Александрович (Насыфи): История литовских татар и древняя история Азербайджана (Составитель и автор предисловия Т.Керимова-Коджаева) – Вильнюс: Zara, – 2022, – 179 с.
62. Фактор бакинской нефти в победе над фашистской Германией во Второй мировой войне. // Советская авиация в годы Великой Отечественной войны: история в лицах. К 100-летию дважды Героя Советского Союза Мусы Гареева. Материалы всероссийской научно-практической конференции, 18 мая 2022 г. / ред. Р.Н. Рахимов, Э.Ю. Шиляев. – Уфа: РИЦ УУНиТ, – 2022, – с. 22-37.
63. Азербайджанская ССР и США: научно – технические связи в области нефтяной промышленности (20-30-е годы XX столетия) // – Bakı: Azərbaycan tarixşünaslığı, – 2023. cild 84, №2, – с. 45-56.
64. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi dahi şair və mütəfəkkir Nizami Gəncəvi Azərbaycan alimlərinin tədqiqatlarında (XX əsrin birinci yarısı) // – Gəncə: Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi. "İctimai və humanitar" elmlər seriyası, – Gəncə, – 2023. – № 3 (7), – s. 89-95.
65. Великий Салман Мумтаз: Собиратель классического литературного наследия Востока // Azərbaycan tarixinin izilə (kollektiv monoqrafiya). – Bakı, – 2023, – s. 503-514.
66. Общество Обследования и Изучения Азербайджана и становление национального научного сообщества в республике (к 100 летнему юбилею) // – Баку: Национальная Академия наук Азербайджана. Общественные науки, – 2023. №1, – с. 138-156.
67. Азербайджанская письменность: исторические истоки и этапы развития // – Türkiye: Akademik Tarih ve Düşünce Dergisi, – 2023. cilt 10 (3), – s. 944-955.
68. 100 летие образования СССР: Пути развития науки Азербайджана (20-40-е годы XX столетия) // Листая

страницы истории…К 100-летию образования СССР. Монография. – Саратов: Издательство ООО «ЦеСАин», – 2023. – с. 170-184.

69. Участие азербайджанских геологов, полярников, узников ГУЛАГа в освоении Крайнего Севера (20-40-е годы XX столетия) // Россия – СССР – РФ в условиях реформ и революций XX-XXI вв. Материалы III международной научно-практической конференции, посвященной 100-летию образования СССР, 14 декабря 2022 г. – Саратов, – 2023, – с. 163-179.
70. Становление востоковедных исследований в Азербайджане: история, традиции, школы (первая половина XXстолетия) // – Москва: Orientalistika, – 2023. № 1, т.6, – с. 97-117.
71. Формирование и создание Академии наук Азербайджанской ССР в трудах азербайджанских и зарубежных ученых (1920 - 1945 гг.) // – Москва: Новая и новейшая история,– 2023. №3, – с. 28-42.
72. Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası. / – Bakı: Elm və təhsil, – 2023, – 240 s.

Dissertasiyanın müdafiəsi 26/I 2024-ci il tarixində saat 10°° da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25/XII 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: __.__.2023

Kağızın formatı: A5

Həcm: 66369

Tiraj: 100